# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 55 (3293) Şənbə / 13-17 iyun 2020-ci il Qiymәti 40 qәpik


## Əməliyyat

■ **Bakıda narkotik alveri ilə məşğul olan şəxs tutulub. Hadisə paytaxtın Nizami rayonu ərazisindfə baş verib.** Nizami rayon Polis İdarəsinin Narkotiklərlə Mübarizə Bölməsinin əməkdaşları Bakı şəhər sakini, əvvəllər Cnayət Məcəlləsinin 128-ci (qəsdən sağlamlığa yüngül zərər vurma), 221-ci (xuliqanlıq) və 234-cü (Qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma) maddələri ilə məhkum olunmuş, 1982-ci il təvəllüdlü Ramin Quliyev saxanılıb. Üzərinə baxış keçirilərkən ondan 110 qram heroin, 1 kiloqram 105 qram marixuana və 180 ədəd preqobalin narkotik həb aşkar edilib. Faktla bağlı cinayət işi başlanılıb.

## Məhkəmə

■ **Epidemiya əleyhinə rejimi pozan şəxslər barəsində cinayət işi başlanılıb.** Bakı şəhər sakinləri Qədirov Samid Tahir oğlu, Babalıyev Əflatun Ağaverdi oğlu və Qəmbərov Tufan Təvəkkül oğlu Cinayət Məcəlləsinin 139-1.1-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması xəstəliklərin yayılmasına səbəb olduqda və ya xəstəliklərin yayılması üçün real təhlükə yaratdıqda) maddəsi ilə təqsirli bilinirlər. Adıçəkilən şəxslər barəsində həbs-qətimkan tədbirinin seçilməsi ilə bağlı məhkəməyə təqdimat verilib.

## Qəza

■ **Bakıda yol qəzası nəticəsində qaz xətti zədələnib. Bu barədə hafta.az-a açıqlamasında "Azəriqaz" İstehsalat Birliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Ceyhun Səfərov deyib.** Onun sözlərinə görə, hadisə Sabunçu rayonu Pirşağı qəsəbəsində baş verib: "Qəsəbə ərazisində hərəkətdə olan "Chevrolet" markalı 99 NE 989 dövlət nömrə nişanlı minik avtomobili idarəetməni itirərək hasara çırpılıb. Hadisə nəticəsində ərazidən keçən 108 mm diametrində qaz xətti zədələnib. Hadisə zamanı xəttə qaz sızması yaranıb. Dərhal əraziyə "Azəriqaz" İstehsalat Birliyinin qəza xidməti yollanıb. Hələlik əraziyə qazın verilişi dayandırılmayıb, amma gün ərzində qazın verilişi dayandırılacaq. Çünki qəza zamanı qaz xəttinin 30-40 metr hissəsi kəsilərək dəyişdirilməlidir. Təmir zamanı 350-400 abonentin qaz təminatında fasilə yarana bilər. Günorta saat 15 radələrinə qədər təmir işlərinin başa çatdırılması gözlənilir".

## Yanğın

■ **Sumqayıt şəhərində yaşayış binasında yanğın olub. Hafta.az-ın məlumatına görə, hadisə şəhərin İnşaatçılar qəsəbəsi, Q.Qarayev küçəsində baş verib.** İkimərtəbəli taxtadan inşa olunan yaşayış binasının 2-ci mərtəbəsində olan mənzillərdən birində qəfil yanğın başlayıb. Hadisə yerinə Fövqəladə Hallar Nazirliyinin Yanğından Mühafizə Xidmətinin əməkdaşları cəlb olunublar. Yanğın qısa zamanda söndürülüb. Hadisə nəticəsində xəsarət alan olmayıb. İlkin ehtimallara görə, yanğına səbəb qısaqapanma olub.

# Hər gün 3-5 adamın ölməsi vəziyyətin nə qədər ciddi olduğunu göstərir




***"14-16 iyun tarixlərində xüsusi karantin rejimində yalnız Oprtativ Qərərgahın icazə verdiyi dövlət və özəl qurumların əməkdaşları icaze.gov.az saytı vasitəsilə icazə ala biləcəklər". Bunu Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev Operativ Qərərgahın brifinqində deyib. Ü.Mehdiyev bildirib ki, hazırda olan məlumata görə, 210 minə yaxın işçi üçün icazə alınıb: "İcazə verilən qurumlar da maksimum az işçilərinə icazə almalıdırlar".***

Onun sözlərinə görə, icazə alınan şəxslər həmin işə uyğun olmasa onların adı icazə sistemindən çıxarılacaq və həmin şəxslərə cərimələr tətbiq ediləcək: "Ona görə də icazə alanlar diqqətli olmalıdır".

"Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq Qərarına əsasən, 2020-ci il 14 iyun saat 00:00-dan 16 iyun saat 06:00-dək Bakı, Gəncə, Lənkəran və Sumqayıt şəhərlərinin, Abşeron, Yevlax, İsmayıllı, Kürdəmir və Salyan rayonlarının ərazisində sərtləşdirilmiş karantin rejimi ilə əlaqədar bir sıra məhdudiyyətlər tətbiq ediləcək". Ülvi Mehdiyev bildirib.

Onun sözlərinə görə, məhdudiyyətlərin tətbiq edildiyi müddətdə dializ xəstəsi olan şəxslər "ASAN xidmət"in 108 "Çağrı" Mərkəzinə zəng etməklə müvafiq tibb müəssisələrinə çatdırılmaları ilə bağlı müraciət edə bilərlər. ASAN könüllüləri xüsusi ayrılmış avtomobillər vasitəsi ilə həmin şəxslərin aidiyyəti tibb müəssisələrinə çatdırılmasını və geri qaytarılmasını təmin edəcəklər: "TƏBİB 972 xəstənin siyahısını təqdim edib".

## Açıqlama

Bundan əlavə təcili yardımın, kommunal xidmətlərin (işıq, su, qaz, lift xidmətləri) qaynar xətlərinə müraciət etməkdə və digər zəruri təxirəsalınmaz hallarla bağlı çətinlik çəkən vətəndaşlar 108 "Çağrı" Mərkəzinə zəng vurmaqla zəruri xidmət sahələri ilə əlaqələndiriləcəklər.

"İcazələr sistemi ilk dəfə xüsusi karantin rejimi ilə əlaqədar aprelin 3-də tətbiq olunmağa başladı". Ülvi Mehdiyev bildirib. "Həmin dövrdə ilk 1 həftədə 40 minə yaxın icazənin yeni əmək müqaviləsi fonunda formalaşdığını gördük. Ümumiyyətlə həmin dövr üçün 70 minə yaxın yeni əmək müqaviləsinin şahidi olduq. Bununla əlaqədar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) ilə məlumatlarımızı qarşılıqlı inteqrasiya edirik. Təşkilatlar öz əməkdaşlarını icazə sisteminə daxil etmək üçün mütləq onun orada əmək və ya xidməti müqaviləsinin olub-olmadığını qeyd etməlidir. Əgər əmək müqaviləsi qeyd edilirsə, amma bu, ƏƏSMN-in əmək bildirişləri sistemi tərəfindən doğrulanmırsa, yeni icazə almaq istədiyi şəxsin əmək müqaviləsi yoxdursa, həmin şəxsə icazə verilmir.

ardı səh. 5



# Paytaxtdakı çimərliklər yay mövsümünə hazırdır

**Yayın ilk günlərindən paytaxtdakı çimərliklərdə mövsümə hazırlıqla bağlı son işlərə yekun vurulub. Çimərliklərdə lazımi təmizlik-abadlıq işləri görülüb, karantin dövrünün tələblərinə uyğun olaraq tibbi-profilaktiki tədbirlər həyata keçirilib.** Keçən il paytaxt sakinləri, eləcə də şəhərimizin çoxsaylı qonaqlarının istək və arzuları, onların IDEA İctimai Birliyinə müraciətləri nəzərə alınaraq, Birliyin təsisçisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə paytaxtın dənizkənarı ərazilərində mövcud özəl istirahət mərkəzləri və pullu çimərliklərə alternativ olaraq ictimai çimərliklər yaradılmışdır.

İlk olaraq belə çimərlik Səbail rayonunda, "Şıx" çimərlik ərazısındə, daha sonra isə Sahil, Buzovna, Novxanı, Görədil və Pirşağı qəsəbələrində təşkil edilmişdir.

Qeyd edilən hər bir qəsəbədə əvvəllər baxımsız vəziyyətdə olan ərazilər təmizlənərək abadlaşdırılıb, burada tələbata uyğun miqdarda kölgəliklər, soyunub-geyinmə və duş kabinaları, sanitariya qovşaqları, istirahətə gələn vətəndaşların nahar etmələri üçün söhbətgahlar quraşdırılmış, futbol və voleybol meydançaları yaradılmış, dəniz kənarına uzanan yola asfalt çəkilib və hər bir ərazidə avtomobil dayanacağı yaradılıb.

ardı səh. 7



# İndiyədək 10-a yaxın tibb işçisi COVID-19-dan vəfat edib

**"İndiyə kimi yeni növ koronavirusa yoluxan 10-a yaxın tibb işçisi vəfat edib". Bunu TƏBİB-in infeksion xəstəliklər üzrə işçi qrupunun rəhbəri Vasif Əliyev bildirib. V. Əliyev deyib ki, xəstələnən insanlarla ən çox ünsiyyətdə olanlar tibb işçiləridir:**

"Xəstələnən insanlarla ən çox ünsiyyətdə olanlar həkimlər, tibb bacıları və xadimələrdir. Bu insanlar yüksək risk qrupundadır və onlar arasında yoluxma çoxdur. Daha çox yoluxma orta və kiçik tibb işçiləri arasında qeydə alınıb. Ancaq bunun sayını söyləmək çətindir. Çünki tibb işçiləri özlərini evdə də müalicə edə bilərlər. Yoluxan və yaşı çox olan tibb işçilərində bu xəstəlik daha ağır keçir, ölüm riski daha yüksəkdir. İndiyə qədər koronavirusdan 10-a yaxın tibb işçisi dünyasını dəyişib".

"Həftə sonları xüsusi karantin rejiminin tətbiqində məqsəd təması azaldaraq yoluxmanın səviyyəsini düşürməkdir". Vasif Əliyev bildirib.

V. Əliyev deyib ki, koronavirusa yoluxan və bunu gizlədən insanlar da var: "Bu da ölüm səviyyəsini artırır, başqa insanların yoluxmasına şərait yaradır. Vəziyyət hələ nəzarət altındadır. Ancaq insanlar qaydalara ciddi riayət etməlidir. Vəziyyətin daha ciddi olmasının qarşısını almaq üçün vətəndaşlarımızı məsuliyyətli olmağa çağırıram".

"Xalq artisti Teymur Mustafayev koronavirusdan dünyasını dəyişib". Vasif Əliyev bildirib. V. Əliyev deyib ki, o bu faktı təsdiqləyir: "Onun hər iki ağciyərinə ciddi sətəlcəm diaqnozu qoyulmuşdu. Xalq artisti ilə təmasda olan insanlara tövsiyə edilir ki, müraciət etsinlər. Çünki gec müraciət zamanı sağalma şansı azalır". Qeyd edək ki, T. Mustafayevin koronavirusdan vəfat etmədiyinə dair iddialar var.

"Testin nəticəsi 1 günə çıxır. Amma test sayı çox olduğuna görə burada ləngimələr ola bilər". Vasif Əliyev bildirib. V. Əliyev deyib ki, test laboratoriyaya təqdim ediləndə məlum olma müddəti 6 saatdır: "Bir məqamı da deyim. Sərt karantin rejiminin tətbiqi ilə bağlı nəticələr 12 gündən sonra məlum ola bilər. Onu da deyim ki, əgər yoluxma sayları artarsa, karantin rejimi də uzadıla bilər". "Yoluxmanın səviyyəsi artdığı üçün sərt karantin rejiminə əl atırıq". Vasif Əliyev bildirib. V. Əliyev deyib ki, Gəncədə həkim çatışmazlığı ilə bağlı məsələ də araşdırılacaq: "Tək Gəncə deyil, Bakıda, digər yerlərdə də kritik vəziyyətə şahid ola bilərik. Bəziləri evdə qalır, xəstəliyi gizlədirlər, bu da daha ciddi problemlərə yol açır. Bu baxımdan Gəncədə həkim insanlara müraciət ünvanlayıb ki, virusa inanmamağa son verilsin. Çox insan tanıyıram ki, ailə üzvlərindən koronavirusa yoluxduqlarını gizlədir. Belə hallar isə yoluxmanı artırır. Yoluxma halı çox olsa, yüngül vəziyyətdə olan xəstələr məcburən evdə qalacaq". "Artıq Bakıda pandemiya xəstəxanalarında bəzi hallarda yer çatışmazlığı problemi yaşayırıq". Vasif Əliyev bildirib. V. Əliyev deyib ki, əhalinin sıx olduğu, belə problemlərin gözlənildiyi yerlər nəzərə alınaraq modul tipli xəstəxanalar quraşdırılır: "Həkimlər gecə-gündüz çalışır. Bacardığımız qədər xəstəxanalarda yerləri artıraraq xəstələri qəbul etməyə çalışırıq. Ümumilikdə, pandemiya xəstəxanalarında ən çox doluluq faizi Bakıdadır".

GÜNDƏM

# Bu il Həcc ziyarətinin ləğvi planlaşdırılır



**Məkkə istisna olmaqla digər şəhərlərdə məscidləri ibadətə açan Səudiyyə Ərəbistanı Həcc ziyarəti ilə bağlı qərarını yaxın günlərdə verəcək.**

Krallıqda bununla bağlı iki variant üzrə müzakirə aparılır - ölkəyə məhdud sayda zəvvarın gəlməsi, yaxud da Həcc və Ümrə ziyarətlərinin tamamilə ləğv edilməsi.

"Financial Times" iddia edir ki, 1932-ci ildə yaradılan Səudiyyə Ərəbistanı Krallığı tarixində ilk dəfə olaraq Həcc ziyarətini ləğv etməyi planlaşdırır. Səudiyyə rəsmisi bildirib ki, Həcc mövsümündə 2 milyondan çox ziyarətçi qəbul edən və 12 milyard dollar gəlir götürən Krallıq ölkədə COVID-19-a yoluxanların sayının 100 min nəfəri keçməsindən sonra seçim qarşısında qalıb.

Artıq iki ölkə vətəndaşlarını Həcc ziyarətinə göndərməyəcəyini bəyan edib. Hər mövsüm Həccə 200 min zəvvar göndərən İndoneziya və Malayziya bu cür bəyanatla çıxış ediblər.

## Günün fotosu...



Necəsən əziz dostum...

## "HƏFTƏ İÇİ"ndən



### "Koroğlu" metrosunun ətrafındakı "yaşıl ada" səhraya çevrilir

Yerə döşənilmiş tamet daşlar dağılaraq neçə vaxtdır ki, ərazidə qalıb, gəlib təmir edən yoxdur

bax səh. 7



### Dünyada "yaşıl" texnologiyalara maraq artıb

Mütəxəssislər hesab edirlər ki, Yer kürəsində alternativ enerjidən istifadə səviyyəsinin artması qlobal istiləşmə meyillərini azaldacaq

bax səh. 6

## Sərəncam



**Prezident İlham Əliyev iyunun 12-də "Şabran rayonunun Gəndob-Xaçmaz-Yalama-Rusiya Federasiyası ilə dövlət sərhədi (4 km)-Şahnəzərli avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında" sərəncam imzalayıb.** Sərəncama əsasən, Gəndob-Xaçmaz-Yalama-Rusiya Federasiyası ilə dövlət sərhədi (4 km)-Şahnəzərli avtomobil yolunun tikintisi məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün göstərilmiş vəsaitin 900 min manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

***

**Prezident İlham Əliyev Şahin Mustafayevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikasının iqtisadi inkişafında xüsusi xidmətlərinə görə Şahin Abdulla oğlu Mustafayev "Şöhrət" ordeni ilə təltif edilsin.**

## Prezident İlham Əliyev II Elizabetə təbrik göndərib



**Prezident İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası Ülyahəzrət II Elizabetə təbrik ünvanlayıb. Hafta.az xəbər verir ki, təbrikdə deyilir:**

"Ülyahəzrət, Ölkənizin milli bayramı - Təvəllüd Gününüz münasibətilə Sizi və Birləşmiş Krallığın dost xalqını öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm. Fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, xalqınıza daim rifah arzulayıram".

## Müsavatın yaratdığı anarxiya Heydər Əliyevin qayıdışı sayəsində aradan qaldırıldı



**"Müasir Azərbaycan tarixinin ən şərəfli anlarından olan Milli Qurtuluş günündən 27 il ötür". Bunu Baş Nazirin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini - İcra Katibi Əli Əhmədov "Facebook" səhifəsində yazıb.**

Onun sözlərinə görə, Heydər Əliyevin tarixi qayıdışını ifadə edən Milli Qurtuluş günü Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsindən sonra tarixinin dönüş nöqtəsini təşkil edib: "AXC-Müsavat hakimiyyətinin yaratdığı xaos və anarxiya, iqtisadi tənəzzül, 1 600 faizlik inflyasiya, erməni təcavüzünün genişlənməsi, ölkənin cənubunda və şimalında tüğyan edən separatizm, beynəlxalq təcrid və s. müşaiyyət olunan ağır və hərtərəfli böhran yalnız Heydər Əliyevin qayıdışı sayəsində aradan qaldırıldı.

Bu, sözün əsl mənasında Azərbaycanın və onun müstəqilliyinin xilası demək idi. 1993-cü il iyunun 15-dən başlayan Qurtuluş məfkurəsi Azərbaycanın müstəqil dövlətinin qurulması və onun möhtəşəm inkişafının əsasını təşkil edir. Xalqımız bugünkü sabitlik və əmin-amanlığa, yüksəliş və müasirləşməyə görə Heydər Əliyevin tarixi qayıdışına minnətdardır".

## 336 nəfərdə koronavirus aşkarlandı, 5 nəfər öldü

**Azərbaycanda 336 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 183 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan hafta.az-a bildirilib ki, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 5 nəfər vəfat edib. Qeyd edək ki, son sutkada koronavirusla bağlı 5 600 test test aparılıb, yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 368 254 test aparılıb.

HƏFTƏ İÇİ
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2505

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, 'KAPITALBANK' ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Milli Qurtuluş Günü Azərbaycanın müasir tarixinin dönüş nöqtəsidir

***Milli Məclisin iyunun 12-də keçirilən növbədənkənar sessiyasının iclasında parlamentin sədri Sahibə Qafarova Milli Qurtuluş Günü ilə bağlı çıxış edib. Milli Məclisin Sədri bildirib ki, bir neçə gündən sonra xalqımız tariximizə qızıl hərflərlə yazılmış 15 iyun - Milli Qurtuluş Gününü qeyd edəcək.***



Bu, bizim üçün sadəcə təqvim bayramı deyil. Onun ictimai, siyasi və tarixi əhəmiyyəti olduqca böyükdür. Milli Qurtuluş Günü Azərbaycanın müasir tarixinin dönüş nöqtəsidir, xalqımızın, Azərbaycan dövlətçiliyinin sözün həqiqi mənasında xilası tarixidir. Bu tarixi yaradan, yazan isə milli, müstəqil dövlətçiliyimizin banisi Ulu Öndər Heydər Əliyevdir. Spiker qeyd edib ki, müstəqilliyin ilk illərində dövlətimizin üzləşdiyi təhdidlərin, xalqımızın yaşadığı faciələrin bir çoxları canlı şahidi olublar. Həmin dövrdə müşahidə olunan siyasi xaos və anarxiya, dərin iqtisadi tənəzzül, separatizm meylləri yenicə əldə olunmuş müstəqilliyimizi itirmək təhlükəsi yaratmışdı:

"Belə bir zamanda, xalqımızın dəstəyi, etimadı və tələbi ilə ölkəmizdə hakimiyyətə gələn Heydər Əliyevin yüksək səriştəsi, liderlik bacarığı, zəngin dövlətçilik təcrübəsi Azərbaycanı siyasi təlatümlərdən, beynəlxalq təcriddən xilas etdi. Ölkəmizdə hökm sürən özbaşınalığa aradan qaldırıldı və ictimai-siyasi sabitlik təmin olundu. Qısa müddət ərzində Ümummilli Liderin rəhbərliyi ilə köklü islahatlar başlandı, dövlətçiliyin əsasları yaradıldı. Buna paralel olaraq, cəmiyyətimizin ideoloji əsasları formalaşdırıldı, azərbaycançılıq məfkurəsi dövlət ideologiyası kimi qəbul edildi. Demokratik inkişaf, insan hüquqları ilə bağlı çox ciddi islahatlara start verildi. Azərbaycan müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişaf etməyə başladı. Heydər Əliyev Azərbaycanın müstəqilliyinin əbədi, sarsılmaz və dönməz xarakter almasına nail oldu".

Parlamentin Sədri vurğulayıb ki, 15 iyunun bizim üçün müstəsna əhəmiyyəti həm də onunla əlaqədardır ki, möhtəşəm qurtuluş tarixi məhz bu binada - Milli Məclisdə yazılmağa başlanmışdır:

"Ulu Öndərin parlamentimizə rəhbərlik etməsi Azərbaycan parlamentarizm tarixinin parlaq bir səhifəsini təşkil edir. O vaxta qədər siyasi çaxnaşmaların, marginal qrupların mübarizəsinin mərkəzi olan Azərbaycan parlamenti Heydər Əliyevin rəhbərliyi ilə demokratiya məbədinə, Azərbaycanın gələcək inkişaf yolunun müəyyən olunduğu strateji bir mərkəzə çevrildi.

Ulu Öndər məhz parlamentin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və sonrakı illərdə onu həyata keçirdi".

Spiker öz çıxışında dedi ki, xalqımız haqlı olaraq ölkəmizin bugünkü uğurlarını, sabitlik və firavanlığı məhz Heydər Əliyevin tarixi qayıdışı ilə bilavasitə əlaqələndirir. Ölkəmizin inkişafı ilə bağlı fundamental istiqamətlər Ulu Öndər tərəfindən müəyyən edilmişdir. Çox sevindirici haldır ki, Qurtuluşdan başlanan tarixi yol bu gün də uğurla davam etdirilir. Ölkəmizin bugünkü yüksək inkişafı və tərəqqisi Heydər Əliyev ideyalarından güc alır, qurtuluş məfkurəsinə istinad edir. Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli siyasət sayəsində Azərbaycan Respublikası inkişaf edir, dövlət quruculuğu istiqamətində əhəmiyyətli nailiyyətlər əldə edilir.

Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində də etibarlı tərəfdaş kimi tanınır. Bu gün tam əminliklə deyə bilərik ki, Heydər Əliyevin şah əsəri olan müstəqil Azərbaycan ən yüksək zirvələri fəth edir".

Sonra parlamentin iclas zalında Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin 15 iyun - Milli Qurtuluş Günü ilə əlaqədar hazırladığı video-material nümayiş olundu. Daha sonra deputatlar çıxış edərək Milli Qurtuluş Günü ilə əlaqədar öz fikirlərini bölüşdülər, bu günün milli tariximizdəki rolunu və əhəmiyyətini xüsusi vurğulayıblar.

✍ *Sultan*

## Baş prokuror Litva səfiri ilə görüşüb

**İyunun 11-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Litva Respublikasının ölkəmizdəki səfiri Eqidius Navikas ilə görüşüb.**



Baş Prokurorluğun mətbuat xidmətindən hafta.aza bildiriblər ki, görüşdə Baş prokuror Kamran Əliyev ilk növbədə hüquqi dövlət quruculuğu yolunu tutan ölkəmizdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məhkəmə-hüquq islahatları, prokurorluğun fəaliyyətinin hərtərəfli müasirləşdirilməsi, mütərəqqi normativ-hüquqi bazanın yaradılması, yeni informasiya texnologiyalarının tətbiqinə əsaslanan qabaqcıl təcrübənin tətbiq olunması, şəffaf prosedurlara və ədalətli meyarlara əsaslanan köklü kadr və struktur islahatlarının reallaşdırılması istiqamətində görülən işlər və qarşıda duran vəzifələr barədə ətraflı məlumat verib.

Dövlətimizin başçısının siyasi iradəsinə uyğun olaraq korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi istiqamətində aparılan tədbirlərdən danışan Baş prokuror Avropa İttifaqının Azərbaycan hökumətinin korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirdikləri tədbirləri alqışladığını və Litva Respublikasının hüquq-mühafizə orqanları ilə mövcud səmərəli ikitərəfli hüquqi əməkdaşlıqdan məmnunluğunu ifadə edib.

Görüşdə 2009-2011-ci illərdə Avropa İttifaqının "Tvininq" layihəsi çərçivəsində Litvanın Xüsusi İstintaq İdarəsi ilə Azərbaycan Prokurorluğu arasında "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinə dəstək" layihəsini xatırladan Kamran Əliyev "Tvininq" layihəsi çərçivəsində əməkdaşlığın Avropa strukturlarına inteqrasiya istiqamətində mühüm nəticələrin əldə olunmasında əhəmiyyətli rol oynadığını xüsusi vurğulayıb.

Səmimi görüşə görə təşəkkürünü bildirən səfir Eqidius Navikas ikitərəfli münasibətlərə toxunaraq, təmsil etdiyi ölkənin Azərbaycan ilə əlaqələrə böyük önəm verdiyini və iki ölkə arasında münasibətlərin bütün sahələr üzrə dinamik inkişaf etdiyini bildirib. Diplomat ölkələrimizin prokurorluq orqanları arasında faydalı əməkdaşlığın gələcəkdə də davam edəcəyinə əminliyini vurğulayıb.

Görüşdə qarşılıqlı maraq kəsb edən məsələlər müzakirə olunub, faydalı fikir mübadiləsi aparılıb.

## DGK-nin "Telegram" kanalı fəaliyyətə başlayıb



**Dövlət Gömrük Komitəsinin rəsmi "Telegram" kanalı t.me/gomrukaz <https://t.me/gomrukaz> istifadəyə verilib. Kanalda gömrük orqanlarının fəaliyyəti ilə bağı vacib xəbərlər, həyata keçirilən yeniliklər, tədbirlər, gömrük qanunvericiliyi və s. məlumatlar paylaşılacaq.**

"Telegram" tətbiqini smart cihazlara yükləməklə @gomrukaz kanalına abunə olmaq mümkündür.

Qeyd edək ki, Dövlət Gömrük Komitəsinin "Facebook", "Twitter", "İnstagram", "Youtube" və "LinkedIn" sosial şəbəkələrində səhifələri fəaliyyət göstərir.

## Dövlət büdcəsinin icrası təsdiq edildi

**Azərbaycan Resupblikasının 2019-cu il dövlət büdcəsinin icrası barədə məsələ Milli Məclisin bu gün keçirilən növbədənkənar iclasında ikinci oxunuşda müzakirəyə çıxarılıb.**

2019-cu ildə dövlət büdcəsinin gəlirləri 23168,0 milyon manat proqnoza qarşı 24218,1 milyon manat təşkil edib. Proqnozla müqayisədə 1050,1 milyon manat və ya 4,5 faiz, 2018-ci illə müqayisədə isə 1709,2 milyon manat və ya 7,6 faiz çox icra təmin olunub.

Büdcənin gəlirlərinin 7672,3 milyon manatı və 31,7 faizi İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin, 4408,6 milyon manatı və ya 18,2 faizi Dövlət Gömrük Komitəsinin xətti ilə daxilolmaların, 11364,3 milyon manatı və ya 46,9 faizi Azərbaycan Respublikasının Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin, 772,9 milyon manatı və ya 3,2 faizi digər gəlirlərin (578,9 milyon manatı büdcə təşkilatlarının ödənişli xidmətlərindən, 182,6 milyon manatı sair daxilolmalardan, 11,4 milyon manatı dövlət əmlakının, özəlləşdirilən dövlət müəssisə və obyektlərinin altındakı torpaqların icarəyə verilməsindən daxilolmalardan) payına düşür. Dövlət Neft Fondundan dövlət büdcəsinə transfert nəzərə alınmadan 2019-cu ildə dövlət büdcəsinin gəlirləri 12853,8 milyon manat təşkil edib ki, bu da 2018-ci illə müqayisədə 1303,9 milyon manat və ya 11,3 faiz çoxdur.

Diqqətə çatdırılıb ki, 2019-cu il dövlət büdcəsinin xərcləri 25190,0 milyon manat proqnoza qarşı 24425,9 milyon manat və ya 97,0 faiz icra edilib. 2018-ci illə nisbətən bu göstərici 1694,3 milyon manat və ya 7,5 faiz çoxdur.

2019-cu il dövlət büdcəsi xərclərinin 13528,9 milyon manatı və ya 55,4 faizi cari xərclərə (2018-ci illə müqayisədə 1974,5 milyon manat və ya 17,1 faiz çox), 9372,2 milyon manatı və ya 38,4 faizi əsaslı xərclərə (2018-ci illə müqayisədə 430,6 milyon manat və ya 4,8 faiz çox), 1524,8 milyon manatı və ya 6,2 faizi dövlət borcuna və öhdəliklərinə xidmətlə bağlı xərclərə yönəldilib.

Qeyd olunub ki, 2019-cu il dövlət büdcəsi xərclərinin 31,8 faizi və ya 7761,3 milyon manatı sosialyönlü xərclərin maliyyələşdirilməsinə yönəldilib və bu 2018-ci illə müqayisədə 564,8 milyon manat və ya 7,8 faiz çoxdur. Müzakirələrdən sonra məsələ səsə qoyularaq ikinci oxunuşda təsdiq edilib.



Milli Məclisin növbədənkənar sessiyasının növbəti iclasında Naxçıvan Muxtar Respublikasının Babək rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında qanun layihəsi müzakirəyə çıxarılıb. Qanun layihəsinə əsasən, Naxçıvan Muxtar Respublikasının Babək rayonunun inzibati ərazi bölgüsündə aşağıdakı dəyişikliklər edilir:

1. Babək qəsəbə inzibati ərazi dairəsi tərkibindəki Babək qəsəbəsinə şəhər statusu verilsin, Babək qəsəbə inzibati ərazi dairəsi Babək şəhər inzibati ərazi dairəsi hesab edilsin.
2. Cəhri kənd inzibati ərazi dairəsi tərkibindəki Cəhri kəndinə qəsəbə statusu verilsin, Cəhri kənd inzibati ərazi dairəsi Cəhri qəsəbə inzibati ərazi dairəsi hesab edilsin.
3. Nehrəm kənd inzibati ərazi dairəsi tərkibindəki Nehrəm kəndinə qəsəbə statusu verilsin, Nehrəm kənd inzibati ərazi dairəsi Nehrəm qəsəbə inzibati ərazi dairəsi hesab edilsin.

■ **Milli Məclisin növbədənkənar iclasında Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər müzakirəyə çıxarılıb. Bildirilib ki, bu dəyişikliklər bir neçə istiqamət üzrə hazırlanıb.**

Birinci istiqamət Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanı ilə verilmiş tapşırıqların icrası ilə bağlıdır. Belə ki, ədalət mühakiməsinin əlçatanlığını və şəffaflığını daha da artırmaq məqsədilə məcəlləyə bir sıra dəyişikliklər təklif olunur.

Bu dəyişikliklər "Elektron məhkəmə" informasiya sisteminin tətbiqini, müasir informasiya-kommunikasiya texnologiyalarının üstünlüklərindən istifadə edilməklə, xüsusi hallarda cinayət prosesinin videokonfrans vasitəsilə davam etdirilməsini təmin edən yeni maddələrin əlavə edilməsini, məhkəmə icraatının obyektivliyini daha dolğun şəkildə təmin etmək üçün bütün məhkəmə iclaslarının fasiləsiz audioyazısının aparılmasını və protokolun məhkəmə iclasının audioyazısına uyğun tərtibini nəzərdə tutur.

Növbəti istiqamət cinayət mühakimə icraatında kassasiya şikayəti icraatının təkmilləşdirilməsindən ibarətdir. Digər istiqamət isə xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması üzrə icraatın prosessual qaydaları ilə bağlıdır. Bununla əlaqədar olaraq Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinə həmin qaydaları ehtiva edən yeni 59-cu fəslin əlavə edilməsi təklif olunur. Bu qanun layihəsinin 2020-ci il iyul ayının 1-dən qüvvəyə minməsi nəzərdə tutulub. Müzakirələrdən sonra dəyişikliklər səsə qoyularaq ikinci oxunuşda təsdiq edilib.

✍ *Sultan*

# Müxalifət daxilində yeni cığırların açılması prosesi getməlidir

***Azərbaycanın keçmiş baş naziri, Azərbaycan Xalq Partiyasının (AXP) sədri Pənah Hüseynlə ötən həftənin gündəmini dəyərləndirdik. Milli Şura sədri Cəmil Həsənlinin hakimiyyətlə dialoq və görüşlərə qatılanları "tryapka" adlandırmasından, Sülhəddin Əkbərin 1992-93-cü illərdəki cəbhə hakimiyyəti ilə bağlı səsləndirdiyi sensasion fikirlərdən danışdıq. AXP sədri Pənah Hüseynin hafta.az-a müsahibəsini təqdim edirik:***



**Pənah Hüseyn,**
Azərbaycanın keçmiş baş naziri, Azərbaycan Xalq Partiyasının (AXP) sədri

***- Pənah bəy, ötən həftə ölkənin əsas gündəm mövzularından biri Dağlıq Qarabağ məsələsi idi. Bir çoxları hesab edir ki, hazırda münaqişənin həlli üçün əlverişli şərait yaranıb. Siz necə düşünürsünüz, münaqişənin həlli ilə bağlı hansı konkret addımlar atılmalıdır?***

- Münaqişənin həlli ilə bağlı konkret olaraq filan addım atılmalıdır - prizmasından yanaşılması doğru olmazdı. Təbii ki, bununla bağlı mülahizələr söylənilə bilər. Çünki bunun üçün kifayət qədər informasiyaya malik olmaq lazımdır. Ölkənin hərbi gücü, diplomatik imkanları ilə bağlı yetərli informasiyalar olmalıdır. Eyni zamanda, uzun illərdən bəri aparılan, konkret məzmunu açıqlanmayan danışıqlar barədə məlumatlı olmaq gərəklidir. 30 ildir ki, Azərbaycan ərazisinin 15 faizi -bəzən 20 faiz də işlənir - işğal altındadır.

Ölkənin ərazi bütövlüyü pozulub. Konstitusiyaya görə ərazi bütövlüyünün bərpa olunması və bu istiqamətdə addımlar atılmalıdır. Konstitusiyaya görə, bunun bərpa olunması, beynəlxalq hüquqda və ölkə konstitusiyasında nəzərdə tutulan, silahlı qüvvələrdən istifadə olunmaqla addımların atılması siyasi hakimiyyətin görəvidir. Biz bir həftə, 10 gün sonra filan addımlar atılsın deyərəkən ümumi yanaşmaları nəzərdə tuturuq. Buraya ölkənin iqtisadi, hərbi gücünün artırılması kimi məsələlər daxildir. Buraya demokratik və iqtisadi islahatların aparılması, sosial ədalətin bərpa olunması, o cümlədən silahlı qüvvələr daxilində korrupsiyanın kökünün kəsilməsi aiddir. Ölkənin hərbi, iqtisadi və insani resursları səfərbər olunmalıdır. Bu işlərin aparılması üçün ölkədə legitimlik yaradılmalıdır. Bu istiqamətdə kompleks işlərin həyata keçirilməsi üçün düzgün addımlar atılarsa, silahlı qüvvələrdən istifadə olunmaqla xalq öz torpaqlarının azad edilm'si istiqamətindəki addımları dəstəkləyər. Bu prosesdə iştirak edər. Beləliklə, torpaqları işğaldan qurtarmaq olar. Ümumi, konseptual yanaşma bundan ibarətdir.

***- Bəs hərbi və diplomatik sahələrdə konkret olaraq hansı addımlar atılmalıdır?***

- Hərbi və diplomatik sahədə, eləcə də danışıqlar məsələsində konkret olaraq hansı addımların atılması ilə bağlı daxili və xarici amilləri hərəkətə gətirən konkret sənədlər hələ 90-cı illərin sonundan başlayaraq tərtib olunub. Ümumi şəkildə müəyyən təkliflər də edilib. Son dövrlər Qarabağ Komitəsi tərəfindən belə sənədlər təqdim olunub. Hələ o dövrdən istər siyasi qüvvələr, istərsə də, ictimai sektor tərəfindən belə təkliflər hazırlanıb və təqdim edilib.

***- Bəzi şərhçilər hesab edir ki, əgər Azərbaycanda siyasi hakimiyyətlə müxalifət birləşsə, vahid mövqe ortaya qoya bilsə, bu, Ermənistanın qəti məğlubiyyəti ilə nəticələnəcək. Eyni zamanda, qeyd olunur ki, belə bir birlik hazırda Azərbaycanın siyasi mühitində yoxdur...***

- Ölkənin öz torpaqlarını azad etməsi üçün daxildə milli birliyin yaranması şübhəsiz ki, siyasi hakimiyyətlə siyasi müxalifətin işbirliyini tələb edir, nəzərdə tutur. Əlbəttə, bu amil istənilən ölkədə dərhal onun hərbi-siyasi gücünü artırar. Bu məsələdə məsuliyyət ilk növbədə hakimiyyətdəki siyasi qüvvənin üzərinə düşür. Ölkənin bütün resurslarının hakimiyyətdə olan qüvvənin əlində cəmləşdiyinə görə. Eyni zamanda, bu məsələdə ölkə daxilindəki siyasi qüvvələrin - hakimiyyətlə müxalifətin bir yerdə olması zəruri şərtlərdən biridir.

Yeri gəlmişkən, Azərbaycan müxalifəti - mən qeyd etdiyim müxalifət - öz təşəbbüslərində daim bir müddəanı səsləndirib ki, döyüş əməliyyatları başlanarsa, hətta siyasi fəaliyyətlərini dayandıra bilər. Bu, 1998-ci ildən üzübəri qəbul olunmuş bütün sənədlərdə vurğulanıb. Azərbaycanda siyasi proseslərə təsir imkanına malik olan müxalif qüvvələrinin, eləcə də digərlərinin mövqeyi bundan ibarətdir. Şübhəsiz ki, istər müxalifət, istərsə də iqtidar daxilində bu məsələdə fərqli düşünənlər də var. Bu məsələdə həlledici məqam siyasi hakimiyyətin iradəsidir. Bir daha təkrar edirəm. Hətta mövcud şərait daxilində Azərbaycan müxalifəti tərəfindən dəfələrlə siyasi bəyanat verilib ki, müxalifət ölkədə, Qarabağda, ümumiyyətlə, işğal olunmuş torpaqların azad olunması məsələsində bütün addımlara getməyə hazırdır.İqtidarın hər hansı bir təkliflə çıxış etməsi və müxalifətin bu məsələdə hakimiyyətlə razılaşmaması ilə bağlı Azərbaycanın ən yeni tarixində faktla rastlaşmamışam.

***- Pənah bəy, ötən həftənin qalmaqallı açıqlamalarından biri Milli Şuranın sədri Cəmil Həsənlidən gəldi. O, siyasi hakimiyyətlə dialoqa gedənləri "tryapka" adlandırdı. Siz də dialoqlara, görüşlərə qatılmısınız. Milli Şura sədrinin belə bir ifadəsinə münasibətinizi bilmək istərdik...***

- Cəmil bəyin o cür açıqlaması ilə tanış deyiləm. Bu barədə təxmini fikirləri mətbuatdan eşitmişəm. Müxtəlif fikirlər var. Mövqeyimi bilmək istəyirsinizsə, əlbəttə, arzu olunan odur ki, Azərbaycanın siyasi müxalifəti onları birləşdirən ümumi hədəflər uğrunda əməkdaşlıq etsinlər. Hətta öz qüvvələrini birləşdirsinlər. Münasibətim konkret olaraq bundan ibarətdir. Cəmil bəyin özü bu barədə fikir söyləməyənə qədər bununla bağlı fikir söyləmək doğru olmaz. Həm iqtidara, həm də müxalifətə münasibətdə bu cür ifadələrin işlədilməsi arzuolunan deyil.

***- Ötən həftənin ən qalmaqallı açıqlamaları keçmiş Milli Təhlükəsizlik Nazirinin müavini Sülhəddin Əkbərdən gəldi. AXC hakimiyyəti dönəmində rəhbərlikdə təmsil olunan bir sıra şəxslərin "KQB" agenti olduğunu söylədi. Bu barədə fikriniz nədir?***

- Bu barədə Zərdüşt Əlizadə 30 ildir danışır. Deyir ki, guya o zaman iqtidarda olanlar sonradan hakimiyyəti öz əlləri ilə Heydər Əliyevə təqdim edib. Ayaz Mütəllibov da bu barədə fikirlərini kitabında yazıb. Vaqif Hüseynov öz memuarlarında bu barədə yazıb. Yəni, bildirmək istəyirəm ki, bu ittihamlarda yeni heç nə yoxdur. Elçibəy və AXC düşmənləri bu fikirləri müxtəlif dövrlərdə səsləndiriblər. Həmin dövrdə məsul vəzifələrdən birini tutmuş Sülhəddin Əkbərin milli hökumətlə bağlı bu cür fikirlər səsləndirməsi heç xoş olmadı. Hətta xeyli hiddətə səbəb oldu. 4 iyun hadisələrinin müzakirə olunduğu bir vaxtda bütün gündəm dəyişdirdi bu açıqlamalar. Konkret şəxslər yox, milli hökuməti hədəf alan açıqlamalardır.

***- Pənah bəy, müxalif düşərgə yenə də bir illik iqtidar dövründən qalma intriqalarla bir-birinə ittihamlar səsləndirirlər. "Köhnə köhnədə qaldı" prinsipinə əsasında niyə yeni cığır açmırlar? Niyə birləşə bilmirlər?***

- Təbii ki, yenilənmə olmalıdır. Müxalifət daxilində yeni cığırların açılması prosesi getməlidir. Bu aydındır. Tənqid də olmalıdır. Amma etik çərçivədə. Təssüf ki, biz hələ də iqtidar-müxalifət, eləcə də müxalifətdaxili münasibətlərdə buna nail ola bilməmişik.

✍ *Tural*

# Avropa Parlamentinin bəyanatı işğalçıya növbəti "hüquqi şillə" oldu



**Avropa Parlamentinin Azərbaycan, Gürcüstan və Ermənistan üzrə Parlament Əməkdaşlıq Komitəsinin həmsədri Mariya Kalyurandın, Azərbaycan üzrə məruzəçisi Jelena Zavkonun, Ermənistan üzrə məruzəçisi Trayan Baseskunun Ermənistan ilə Azərbaycanın işğal altındakı Dağlıq Qarabağ bölgəsi arasında əlaqə yaradacaq magistral yolun tikintisi ilə bağlı birgə bəyanatı işğalçı ölkəyə növbəti "hüquqi şillə" oldu.**

Çünki həmin bəyanatla Avropa İttifaqı bir daha Azərbaycanın ərazi bütövlüyünü tanıdığını təsdiqlədi. Bəyanatda magistral yolun çəkilişi üçün Ermənistanın Azərbaycanın müvafiq dövlət qurumlarından icazə almamasının beynəlxalq hüququn pozulması kimi əks etdirilməsi ilə Avropa İttifaqı faktiki olaraq Dağlıq Qarabağın həm coğrafi, həm də siyasi-hüquqi sahibinin Azərbaycanın olduğunu qəbul etdi.

■ **Bu fikirləri hafta.az-a açıqlamasında Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.**

Ermənistanın Dağlıq Qarabağı birləşdirən üçüncü yolun çəkilişinə cəhd göstərməsinin bir neçə amildən irəli gələ biləcəyini qeyd edən Sədaqət Vəliyeva bildirib: "Hər kəs bilir ki, Azərbaycan Ordusunun 2016-cı və 2018-ci illərdə həyata keçirdiyi uğurlu döyüş əməliyyatları nəticəsində Ermənistanla Dağlıq Qarabağ ərazisini birləşdirən yollar nəzarətə götürülüb. Bu mənada, Ermənistan xeyli xərc çəkib yeni yol çəkməklə hərbi manevr etməyə, qanunsuz məskunlaşdırmanı davam etdirməyə, təbii sərvətlərin talanına, istismarına, daşınmasına, narkotik vasitələrin tranzitinin gücləndirilməsinə nail olmağa cəhd edə bilər. Ümumiyyətlə, üçüncü magistral yolun çəkilməsi cəhdləri bir daha Ermənistanın qeyri-qanuni işğalçılıq siyasətini möhkəmləndirməsinə və Azərbaycan ərazilərinin ilhaqını davam etdirməsinə hesablanıb. Bu səbəbdən də Ermənistanın bu cür qanunsuz əməlləri onun beynəlxalq öhdəliklərinə ziddir, eləcə də beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulmasıdır.

"Beynəlxalq hüquq Azərbaycan haqq işini dəstəkləyir və müdafiə edir", - deyən Sədaqət Vəliyeva əlavə edib ki, BMT Təhlükəsizlik Şurasının qətnamələri, İslam Əməkdaşlıq Təşkilatının, Qoşulmama Hərəkatının, Avropa Parlamentinin üzvlərinin qətnamə və bəyanatları işğalçı ölkəyə ünvanlanmış konkret çağırış və tələblərdir. "Amma bütün bunlarla yanaşı, dünya dövlətləri də, xüsusilə ikili standartlar siyasəti yürüdənlər, hüququ istismar edənlər də ortaya mövqe qoymalıdırlar. Artıq zamanıdır ki, Ermənistana qarşı sanksiyalar tətbiq edilsin, beynəlxalq öhdəliklərini pozduğu üçün işğalçı ölkə cəzalandırılsın", - deyə deputat bildirib. Ermənistanın qeyri-qanuni hərəkətlərinin, magistral yolun çəkilişi cəhdlərinin müharibənin yenidən alovlanmasına da səbəb ola biləcəyini deyən Sədaqət Vəliyeva vurğulayıb: "Əgər bölgədə hərbi vəziyyət gərginləşərsə, bunun məsuliyyəti əlbəttə ki, Ermənistanın üzərinə düşəcək. Ona görə də beynəlxalq ictimaiyyət, beynəlxalq təşkilatlar müharibə təhlükəsini nəzərə alaraq, Ermənistanın təxribatçı əməllərinə cavab olaraq qabaqlayıcı addımlar atmalıdırlar".

"Avropa Birliyi uzun müddətdir ki, Azərbaycanın ərazi bütövlüyü ilə bağlı uzun müddətdir ki, çox pozitiv mövqe tutur. Dağlıq Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsi ideyasını irəli sürür. Əlbəttə, bu bizim üçün çox əhəmiyyətli bir faktdır. Avropa Parlamentinin ərazi bütövlüyümüzlə bağlı qəbul etdiyi rəsmi sənəd hətta mən deyərdim ki, bu hadisə bizim diplomatiyamızın böyük uğurudur".

■ **Bunu hafta.az-a açıqlamasında politoloq Qabil Hüseynli deyib. Politoloq bildirib ki, artıq bu, Ermənistan üçün ciddi faciələrin başlanğıc dövrüdür:** "Yəni, bundan sonra ermənilər hər hansı qondarma uydurmalara əl ata bilməyəcək. Öz müqəddəratını təyin etmək kimi sərsəm fikirləri olmayacaq, ya da kifayət qədər məhdudlaşacaq. Azərbaycan bundan sonra danışıqlar stolu arxasında Ermənistanın destruktiv hərəkətlərini poza biləcək imkanlara malik olacaq. Bu sənəd həm də Azərbaycanın hərb meydanında sərbəst hərəkəti üçün şərait yaradır. Danışıqlar stolu arxasında pozuculuqla məşğul olan, destruktiv mövqe tutan Ermənistanı ram etmək üçün Azərbaycan lazım gələndə hərbi qüvvələrə də istinad edəcək. Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün səfərbər olacaq. Ölkəmizin ərazi bütövlüyü artıq dünya ictimai rəyində, beynəlxalq təşkilatlarda heç bir etiraz və ya fərqli fikir doğurmur. Məlum bəyanata Ermənistan nümayəndə heyətindən olan 4 deputat da imza atıb. Bu da onu göstərir ki, ermənilərin indiyə qədər apardıqları informasiya siyasəti tam uğursuzluğa düçar olub. Azərbaycan daha inamla dünya ictimai rəyi üzərində özünün həlledici rolunu tətbiq etməyə doğru gedir".

✍ *Tural*

# Cəza siyasətinin humanistləşdirilməsi diqqət mərkəzindədir



**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə insan hüquqlarının qorunmasına daim xüsusi önəm verilir, bu sahədə mütərəqqi islahatlar aparılır, o cümlədən cəza-icra siyasəti humanistləşdirilir. Dövlət başçısı tərəfindən və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul olunan əfv və amnistiya aktları, COVİD-19 pandemiyası dövründə yaşı 65-dən yuxarı olan 176 məhkumun əfv edilməsi dövlətimizin humanist siyasətinin əyani təzahürüdür.** Eyni zamanda azadlıqdan məhrum etmə cəzasının tətbiqinin azaldılması və alternativ cəzalara üstünlük verilməsi məqsədilə ölkə Prezidentinin cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il 10 fevral tarixli Sərəncamı ilə cinayət qanunvericiliyinə əsaslı dəyişikliklər edilmiş, bir çox əməllər dekriminallaşdırılmış, azadlığın məhdudlaşdırılması yeni cəza növü təsbit olunmuşdur.

Dövlət başçısının qanunvericilik təşəbbüsü ilə Cinayət Məcəlləsinə edilmiş dəyişikliklərlə bağlı yeni Qanunun təsiri altına düşən məhkumlar barədə məhkəmələrə göndərilmiş təqdimatlardan 6.400-ü təmin edilmiş, o cümlədən cəzaçəkmə müəssisələrində saxlanılan və probasiya qurumlarının qeydiyyatında olan 1.737 nəfər məhkum cəzadan tamamilə azad edilmiş, 2.800-ə yaxın məhkumun törətdiyi əməllər yeni maddələrə tövsif edilərək cəza müddətləri azaldılmışdır. Bununla yanaşı, Ədliyyə Nazirliyi tərəfindən məhkumları vaxtından əvvəl şərti olaraq azad etmə institutunun tətbiqi davamlı xarakter almış, o cümlədən indiki pandemiya dövründə intensivləşərək 600-dən artıq məhkum azadlıqdan məhrum etmə növündə cəzadan şərti azad edilərək probasiya qeydiyyatına götürülmüşdür. Hazırda probasiya qurumlarının qeydiyyatında olan 1.270 nəfər cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxs barədə müvafiq məhkəmə qərarlarının icrası davam etdirilir.

"Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanda da dövlət başçısının humanist siyasətinin təzahürü olaraq cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılmasına dair tədbirlərin davam etdirilməsi tapşırılmış, bununla əlaqədar qabaqcıl beynəlxalq təcrübə öyrənilməklə Cinayət, Cinayət-Prosessual, İnzibati Xətalar və Cəzaların icrası məcəllələrinə əsaslı dəyişikliklərin edilməsi, o cümlədən bir çox əməllərin dekriminallaşdırılması, alternativ cəzalardan daha geniş istifadə olunması və yeni mütərəqqi hüquq institutlarının tətbiqi məsələləri ilə bağlı hazırlanmış qanun layihələri Milli Məclisə təqdim olunmuş və dövlət başçısının qanunvericilik təşəbbüsü əsasında 01.05.2020-ci il tarixli Qanunla Cinayət Məcəlləsinə mühüm dəyişikliklər edilmişdir.

Dəyişikliklərə əsasən 35 əməl tamamilə və ya cinayət əməlinə görə məsuliyyət yaradan hədd artırılmaqla dekriminallaşdırılmış, bəzi cinayətlərə görə zərərçəkmiş şəxslə barışma və ziyanın ödənilməsi şərti ilə cinayət məsuliyyətindən azad etmə müəyyən olunmuş, azadlıqdan məhrum etmə cəzasının tətbiqi hallarının azaldılması məqsədilə 30 maddənin sanksiyasına alternativ cəzalar, o cümlədən cərimə, islah işləri və azadlığın məhdudlaşdırılması cəzaları daxil edilmiş, hərbi xidmət əleyhinə olan cinayətlərə görə cəzalar yüngülləşdirilmişdir. Yeni Qanun və onun tətbiqi barədə dövlət başçısının 22.05.2020-ci il tarixli Fərmanı ədliyyə orqanlarının üzərinə mühüm vəzifələr qoymuş, bununla əlaqədar Ədliyyə Nazirliyi üzrə 01 iyun 2020-ci il tarixli əhatəli Əmr imzalanaraq, Qanunun dürüst və mütəşəkkil icrasının təmin olunması, o cümlədən penitensiar və probasiya xidmətlərinin əməkdaşlarına təlimlərin keçirilməsi, həmçinin vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə Qanunun humanist mahiyyəti barədə geniş maarifləndirmə işinin aparılması, Qanunun təsiri altına düşən şəxslərin dairəsinin dəqiq müəyyən olunaraq onların cəzadan azad olunması və ya cəzasının yüngülləşdirilməsi ilə bağlı təxirəsalınmadan qanunamüvafiq tədbirlərin görülməsi barədə və digər konkret tapşırıqlar verilmişdir.

✍ *Azad*

# "Ermənistanın daha çox zərbə almasının şahidi olacağıq"



**Tural Gəncəliyev,**
Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının rəhbəri, Milli Məclisin deputatı

**"Avropa Parlamentinin Azərbaycan üzrə məruzəçisi Jelena Zavko, Ermənistan üzrə məruzəçisi Trayan Besesku və qurumun Azərbaycan, Gürcüstan və Ermənistan üzrə Parlament Əməkdaşlıq Komitəsinin həmsədri Mariya Kalyurandın Ermənistan və Dağlıq Qarabağı birləşdirəcək yeni magistral yolun tikintisi ilə bağlı birgə bəyanatında qeyd olunan fikirlər Ermənistan hakimiyyətinə ciddi xəbərdarlıq kimi qiymətləndirilməlidir".**

■ Bunu APA-ya Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının rəhbəri, Milli Məclisin deputatı Tural Gəncəliyev deyib. Tural Gəncəliyev sözügedən bəyanatı müsbət sənəd adlandıraraq qeyd edib ki, bu, Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin güclənməsinə təkan verəcək: "Bəyanatı təhlil etsək, görərik ki, Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistanın qeyri-qanuni fəaliyyəti yaxından izlənilir. Bəyanatda Ermənistan-Azərbaycan münaqişəsinin məhz Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində həllinə çağırışın əks olunması, sözügedən magistral yolun inşası qərarının Azərbaycanın səlahiyyətli orqanlarının razılığı olmadan qəbul edilməsi və bunun beynəlxalq hüququn pozulması kimi göstərilməsi, bu addımın Dağlıq Qarabağın və ətraf rayonların Ermənistan işğalını simvolik olaraq əhatə edə bilməsi və bunun etimad, sülh və barışıq mühiti yaratmağa kömək etməməsinin qeyd olunması Ermənistan hakimiyyətinin münaqişənin həllində qeyri-konstruktiv mövqeyini göstərir".

İcma rəhbəri ötən ilin sonunda bəyanat müəllifləri ilə keçirilən görüşlərdən də danışıb: "Ötən ilin sonunda icma üzvləri ilə birlikdə Brüsseldə səfərdə olarkən bu bəyanatın müəllifləri Rumıniyanın keçmiş prezidenti, Avropa Parlamentinin Ermənistan üzrə məruzəçisi Trayan Basesku, Estoniyanın keçmiş xarici işlər naziri, Avropa Parlamentinin Azərbaycan, Gürcüstan və Ermənistan üzrə Parlament Əməkdaşlıq Komitəsinin həmsədri Mariya Kalyurand ilə çox faydalı görüşlərimiz oldu. Bu görüşlər zamanı Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı mövqeyini bu şəxslərin diqqətinə çatdırdıq. Bildirdik ki, Ermənistan tərəfinin qeyri-konstruktiv mövqeyi üzündən uzun illərdi ki, münaqişə həll olunmur və azərbaycanlı köçkünlər öz ata-baba yurdlarına geri qayıda bilmirlər".

Deputat qeyd edib ki, Ermənistan indiyə qədər müxtəlif vasitələrlə beynəlxalq təşkilatları aldatmağa cəhd göstərib: "Təəssüflər olsun ki, bəzi hallarda buna nail olunub. Hazırkı məqamda isə Azərbaycan hakimiyyətinin uğurlu xarici siyasəti nəticəsində Ermənistanın bu yalanları ifşa olunur. Hesab edirəm ki, bu proses davamlı olacaq və biz Ermənistanın daha çox zərbə aldığının şahidi olacağıq".

✍ *Hafta.az*

# Həftəsonu marketklərdə yenidən xaos yaşanacaqmı?

***Ötən həftəsonu olanları hamımız gördük. Nazirlər Kabineti yanında Operativ Qərargahın elan etdiyi əmrə əsasən həftənin cümə günündən bazar ertəsinə qədər ciddi karantin rejimi tətbiq edildi. Elə hər şey də bundan sonra baş verdi. Həmin gün günortadan sonra marketlərdə əməlli-başlı xaos yaşandı. Camaat pul kisələrini silkələyə-silkələyə marketlərə, dükanlara axışdı. Hamı evdən bayıra çıxmayacağı iki-üç gün üçün bazarlıq etməyə çalışırdı.***



Hamı marketlərdə necə deyərlər, çörək davası döyürdü. Marketlər çörək çatdıra bilmir, zavodlar isə öz gücündən artığını ortaya qoymağı bacarmırdı. Görünən o idi ki, tələbin təklifi üstələməsinə nə çörək və ərzaq firmaları hazır idilər, nə də ki, irili-xırdalı marketlər. Nizamsızlıq, intizamsızlıq da öz yerində. Kimi evinə normadan iki-üç dəfə artıq çörək apardı, kimi azyaşlı uşaqlarının yanına əliboş döndü.

Bəs iri marketlər, xırda məhəllə dükanları üzümüzə gələn həftəyə, daha doğrusu, 2-3 gün sonraya hazırdırlarmı? Anbarlarında əhalinin tələbatını ödəyə biləcəkmi? Növbəti xaos və çaxnaşmaya və ya ondan sığortalanmağa hazırdırlarmı? Bu gün paytaxtın irili-xırdalı marketlərində olduq, administratorlarla, satıcılarla, xırda dükan sahibləri ilə söhbətləşdik. Nə danışdıqlarımızdan məlumatlı olmaq istəyirsinizsə, hafta.az-ın səhifəsindən ayrılmayın.

Paytaxtdakı iri marketlər növbəti həftəsonuna hazırlıq görür. İlk baxışdan yaranan mənzərə budur. Çörək rəfləri doludur. Digər rəflərdə də gündəlik tələbat malları çeşid-çeşiddir. Ara günləri heç, bəs həftəsonu necə olacaq? Marketlərdən birinin administratoru ilə söhbətləşirik. Ötən həftə marketlərlə bağlı yaşananlardan danışırıq. Deyir ki, ilk dəfə ciddi karantin rejimi tətbiq olunduğundan və insanlar arasında yaşanan paniklik, eləcə də marketlərin bu duruma hazırlıqsızlığı baş verən mənzərənin əsasını təşkil elədi. Onun sözlərinə görə, üzümüzə gələn həftə bunlar yaşanmayacaq:

“Mağazalar hazırlıqlı olacaq. Şəxsən bizim marketdə axşam seansı üçün gətirilən çörəklər yarım saat ərzində bitdi. İşlədiyimiz müəssisəyə sifariş verdik. Çatdıra bilmədiklərini dedilər. Bu həftə onlar da təklifə uyğun hərəkət edəcəklər. Çünki gələn həftə üçün lazımi ərzaq mallarının, xüsusən də çörəklərin sayını 40-45 faiz artırmışıq. Hətta keçən həftə də təklifdən on faiz artıq çörək var idi. Sadəcə, nizamsızlıq və xaosun olması belə xoşagəlməz durum yaratdı”.

**■ Satıcılarla söhbətləşirik. Deyirlər ki, anbarlarda kifayət qədər ərzaq malları var. Hətta un və un məmulatlarının da ehtiyatları çoxaldılıb.** Başqa bir satıcı deyir ki, 2-3 gün üçün alıcılar boyat çörək istifadə etməkdənsə, makaron, vermişel, spagetti kimi məhsullardan istifadə etsələr, daha yaxşı olar: “Şəxsən biz ailədə 4 nəfərik. Mən 3 çörək aldım. Günyarım ondan istifadə etdik. Yerdə qalan günləri digər un məmulatları, xəmir yeməkləri ilə yola verdik. İnsanlar bir-birlərini başa düşməlidirlər. Çətin günün ömrü az olur. Hər kəs evinə yemək aparmaq istəyir”.

Marketlərin yetkililəri, rəhbərləri ilə növbəti qarma-qarışıqlığın yaşanmaması üçün polisin dəstəyindən istifadə edib-etməyəcəyini soruşuruq. Koronavirus pandemiyası ilə əlaqədar mağazalarda qarışıqlıq, insanlarda xaos və xof hallarının artmasını daha öncə İtaliyada, Çində, Almaniyada, Türkiyədə də gördük. Həmin vaxt həmin ölkələrdə mağaza rəhbərləri nizam-intizam və növbə sisteminin təşkili üçün polisin dəstəyinə ehtiyac duymuşdular. Hətta hər kəs ikidən artıq çörək ala bilmirdi. Kvota qoyulmuşdu. Bizdə də belə bir şey ola bilərmi? Başqa bir məşhur marketin nümayəndəsi deyir ki, onların rəhbərliyi polisə müraciət etməyəcək. Amma daxili təhlükəsizlik xidmətləri, “oxranalar” hesabına vəziyyətə nəzarət etməyə çalışacaqlar.

**■ Başqa bir iri marketdə olduğumuz zaman anoloji suala cavab olaraq bildirdilər ki, gələn həftə üçün təklifdən ikiqat sifariş yerinə yetirə biləcək gücdə olduqları üçün buna ehtiyac duymayacaqlar. Qeyd edildi ki, həftəsonu üçün anbarların sifariş verdiyi məhsullar, əsasən, gündəlik tələbat və ərzaq məhsullarıdır.** Onlar bununla vəziyyətdən çıxmağa çalışacaqlar. Əli adlı administrator qeyd edir ki, polislərin prosesə nəzarət etməsi və ya növbə sisteminin tətbiqinə ehtiyac yoxdur:

“Müştərilər saatlarla gözləməyə həvəsli deyil. Rahatlıqları üçün əlindən gələni edəcəklər. Haqlıdırlar da. Burada növbə olduğunu görsə, gedib rəqib marketdən alış-veriş edəcək. Onsuz da lazımi ehtiyacları ödəyən məhsullar alacaq.

Yəni, gündəlik tələbat duyulan malları. O da məhəllə marketlərində də var. Dediyim odur ki, müştərilərimizi itirmək istəmərik... Amma vəziyyətə nəzarət edə bilməsək, polis və ya daxili təhlükəsizlik əməkdaşlarımızın xidmətindən yararlanmaqla növbəti xaosun yaşanmamasına çalışacağıq”.

Ötən həftəsonu yaşanan xaosların səbəbləri hər mağazada fərqli olub. Bəziləri gözlənilən duruma hazırlıqsız olduqlarını etiraf edir, növbəti həftələr üçün ölçü götürdüklərini deyirlər. Bəziləri isə günahın onlarda deyil, işlədikləri firmalarda, sexlərdə olduğunu düşünürlər. Market rəhbərliklərinin bir qismi isə yaşananlarda, sadəcə, vətəndaşları günahlandırır. Daha doğrusu, onların panik içərisində mağazalara axışması ilə əlaqələndirirlər. Baş çəkdiyimiz bəzi marketlər isə gələn həftəsonu üçün lazımi tələbat mallarının bir qismi ilə təmin olunduğunu söyləyirlər.

Bəs hər adama 2-3, 3-4 çörəkdən artıq satılmaması qaydası tətbiq edilə bilərmi? -sualına market rəhbərləri, satıcılar müsbət yanaşmadılar. Onlar bildirdilər ki, bununla bağlı adiyyatı dövlət qurumları rəsmi qərar qəbul etdikləri halda belə bir tətbiqə gedə bilərlər. Əks halda, onlar heç kimə bu qadağanı tətbiq edə bilməzlər-deyə, bu cür və ya buna yaxın mənalı cavablar eşitdik...

Xırda marketlər isə həftəsonuna hazırlıqsızdır. Məhəllə marketlərindən bildirdilər ki, onların təklifdən artıq sifariş verməyə gücləri yetmir.

**■ Sadiq kişi “İnşaatçılar” metrosunun yaxınlığındakı məhəllə marketlərindən birini işlədir. Deyir ki, gün ərzində 80-100 çörək satır:** “Çünki məhəllənin gücü budur. Yaxınlıqda bir dənə də dükan var. Onlar da mənim qədər çörək sifariş verirlər. Keçən cümə günü bir iş idi də oldu. Hər dəfə bu cür hallar yaşanmır axı. Gələn həftə də eyni sayda sifariş verəcəyəm. Çünki artıq sifariş versəm, “vazvrat”ı boynumda qalacaq. Hamı marketlərdən alış-veriş edir”. Hüseyn kişi isə deyir ki, ötən həftə elə bir vəziyyət yaranıb ki, özü evə çörəksiz gedib: “Həmişə çörək gələndə birinci özüm iki çörəyi kənara qoyurdum. Qonşu uşaqlardan evə göndərirdim. Bu binanın üçüncü mərtəbəsində qalıram. Evdə üç nəfərik. Elə də çörək yeyən ailə deyilik. Üç çörək bəs edərdi. Hamı çörəyi göyə çəkdi. Bir də baxdım ki, çörəksiz qalmışam. Məcbur qalıb oğlumu başqa marketə göndərdim ki, gedib üç çörək alsın”.

Söhbətləşdiyimiz satıcılar gələn həftə üçün əlavə çörək və ya gündəlik tələbat malları sifariş verməyəcəklərini söylədilər. Bildirdilər ki, alıcı qıtlığı yaşanır. Yəni, tələbat o qədər də yüksək deyil”. Bir sözlə, gələn həftə yenə də gözlər iri marketlərə dikiləcək. Amma mağazaların, iri market və supermarketlərin “qara cümə”dən necə çıxacaqlarını isə zaman göstərəcək. İnsanların yenidən xaosa rəvac verəcəyini isə indidən düşünmək çətin olsa da, ehtimal etmək elə də çətin deyil...

✍ *Tural*

## GÜNÜN TƏZADLARI

### İcra başçısı məhkəməyə gətirildi



**■ Neftçala Rayon İcra Hakimiyyətinin sabiq başçısı İsmayıl Vəliyev və rayonun digər vəzifəli şəxsləri barələrində seçilmiş qətimkan tədbirlərinin müddətinin uzadılması ilə bağlı istintaq orqanının verdiyi təqdimat ilə əlaqədar Səbail Rayon Məhkəməsinə gətirildilər.** Hafta.az-ın yazdığına görə, ”Report” xəbər verir ki, məhkəmə təqdimata baxaraq qərar qəbul edəcək. Qeyd edək ki, İ.Vəliyev və digərləri Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) keçrdiyi əməliyyat nəticəsində saxlanılıblar. Onlara qarşı rüşvət, mənimsəmə, vəzifə səlahiyyətlərindən sui-istifadə və s. əməllərlə bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə ittiham verilib. Həmçinin rayonun digər vəzifəli şəxsləri - icra hakimiyyəti başçısının birinci müavini Vurğun Əkbərov, Memarlıq və tikinti şöbəsinin müdiri Vüqar Nağıyev, Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Anar Cəfərov, rayon Mərkəzi Xəstəxanasının baş həkimi Telman Zahidov, rayon Təhsil şöbəsinin müdiri Əjdər Kərimov da bu cinayət işi üzrə təqsirləndirilirlər.

### Ermənistan spikerinin yeni müşavirinin Qarabağda işləyəcəyi bilindi



**■ Azərbaycan Respublikasının ermənilərə işğal etdirilmiş 20 faizlik ərazisində qondarılmış separatçı-terrorçu rejimin qanunsuz “qanunverici orqanı”nın keçmiş rəhbəri Aşot Qulyan işğalçı Ermənistanın parlament sədri Ararat Mirzoyanın müşaviri təyin olundu.** Hafta.az xəbər verir ki, erməni nəşrlərinin yaydığı məlumata görə, bununla bağlı A.Qulyan Ermənistan spikerinə minnətdarlıq məktubu ünvanlayıb. Həmin məktubda maraqlı məqam üzə çıxır. Separatçı rejimin sabiq “spikeri” qeyd edir ki, işğalçı ölkənin spiker köməkçisi kimi o, elə Qarabağda - Azərbaycanın işğal altındakı torpaqlarında işləyəcək. Məqsəd “iki erməni respublikasının parlamentləri arasındakı əlaqələri daha da inkişaf etdirməkdir”.

### Sulutəpədə ustanı öz çəkici ilə döydülər



**■ Bakının Binəqədi rayonunda kafedə dava düşdü. Hafta.az-ın yazdığına görə, APA xəbər verir ki, hadisə Sulutəpə kafesində baş verib.** 1965-ci il təvəllüdlü Həsənağa Həbibov usta kimi çalışdığı yerin yaxınlığında kafedə tanımadığı dörd nəfərlə mübahisə edib. Həmin şəxslərdən biri H.Həbibova məxsus çantadan çəkic çıxararaq onun başına vurub. Yaralı başından xəsarətlər alıb. O, xəstəxanaya yerləşdirilib.

### AzTu-nun kafedra müdiri yalan məlumata görə azad olundu



**■ Azərbaycan Texniki Universitetinin (AzTU) “Xarici dillər” kafedrasının müdiri Yusif Süleymanov öz vəzifə səlahiyyətlərinə səhlənkar yanaşaraq pandemiya dövründə tələbələrə imtahanla bağlı yanlış məlumat vediyinə görə vəzifəsindən azad edildi.** Hafta.az yazır ki, Qxu.az-a bu barədə AzTU-dan məlumat verilib. Bildirilib ki, öz vəzifə öhdəliklərini aşaraq tələbələrə imtahanların keçirilməsi ilə bağlı yalan məlumat verdiyinə və tələbələr arasında çaşqınlıq yaratdığına görə kafedranın professor-müəllim heyətinə xəbərdarlıq edilib. “Xarici dillər” kafedrasının müdiri vəzifəsi müvəqqəti olaraq rektorun beynəlxalq əlaqələr üzrə müşaviri Nigar Sultanovaya həvalə edilib. Eyni zamanda, “Xarici dillər” kafedrasında tədrisin təşkili vəziyyətini öyrənmək və günün tələblərinə uyğun səviyyədə qurmaq məqsədilə, kafedrada ciddi metodoloji və təşkilati dəyişikliklərə ehtiyac yarandığı nəzərə alınaraq professor-müəllim heyətinin attestasiyasının keçirilməsi qərara alınıb. Professor-müəllim heyətinin attestasiyaya hazırlığına yardım məqsədilə kənardan müvafiq dillər üzrə uyğun sertifikata malik mütəxəssislər cəlb edilməklə treninqlərin keçirilməsinə göstəriş verilib.

### Baş nazir vəzifəsindən azad edildi



**■ Suriya prezidenti Bəşşar Əsədin sərəncamı ilə baş nazir İmad Xamis vəzifəsindən azad edildi.** Hafta.az “Report”a istinadla xəbər verir ki, dövlət başçısı baş nazir vəzifəsini icra etməyi ölkənin su ehtiyatları naziri Hüseyn Arnosa həvalə edib. İ.Xamis 2016-cı ildən ölkənin baş naziri vəzifəsində çalışırdı.

✍ *Sultan Laçın*

# Ermənistan koronavirusla savaşı uduzdu

**Rusiyanın “lenta.ru” saytında jurnalist Elen Babayanın “Cəhənnəmə addımlayırıq” sərlövhəli məqaləsi dərc edilib. Materialda COVID-19 koronavirus pandemiyası ilə əlaqədar Ermənistanda yaranmış cari vəziyyətdən bəhs edilir. Hafta.az məqalədən seçmələri təqdim edir:**

- Ermənistanın COVID-19 koronavirus infeksiyası ilə savaşı uduzmuş dövlətlər siyahısına düşmək üçün hər cür şansı var. Ölkədə xəstəliyin sürətlə yayılması yenidən müşahidə olunur, ağır vəziyyətdə olan pasiyentlərin faiz nisbəti kəskin şəkildə artıb, səhiyyə sisteminin resursları tükənməkdədir. Bununla bərabər, hakimiyyət orqanları küçələrdə maskasız halda yaxalanmış vətəndaşları sosial şəbəkələrdə qınamaqla kifayətlənirlər. Vətəndaşlar isə utanmağa tələsmir, çünki epidemiyanın lap əvvəlindən heç kəs epidemioloji təhlükəsizlik qaydalarına riayət olunmasına nəzarət etmirdi. Üstəlik, çoxları COVID-19 barəsində rəsmi KİV-lər və hörmətli ictimai xadimlər tərəfindən yayılan konspiroloji nəzəriyyələrə inanır. Bəs necə olur ki, Ermənistanı epidemiyanın ikinci dalğası bürüyüb və bu dalğa respublika əhalisinə necə təhdid edir?

Ermənistanın baş naziri Nikol Paşinyan ötən çərşənbə günü “Facebook” şəbəkəsinin birbaşa efirinə çıxıb və vətəndaşları təzə xəbərlə təşviş salıb - ölkədə “epidemioloji fəlakət” yaranıb, baş nazir özü və onun bütün ailəsi COVID-19-a yoluxub, sadəcə bu yoluxma simptomsuz olub.

Ölkədə vəziyyət həqiqətən pisləşib: bütün dünyada məhdudiyyətlər götürülür, koronavirus epidemiyasının azalması qeydə alınır, Ermənistanda isə xəstələrin sayı üçqat artıb. Ermənistanda COVID-19-dan qeydə alınmış ölüm hallarının 70 faizi son üç həftəyə təsadüf edir. Bu müddətdə xəstəliyin sürətlə artması müşahidə olunur.

Mayın 20-də ölkədə rəsmən təsdiq edilmiş xəstəlik hallarının sayı 5606 olduğu halda, iyunun 10-da xəstələrin sayı artıq 14103 olub. Ölüm hallarının sayı da kəskin artıb. Ölkədə epidemiya dövründə qeydə alınmış 227 ölüm halından 160-ı bu dövrə düşüb. Həmin dövrdə daha 67 nəfər koronavirusa yoluxmuş olsa da, onlar “başqa səbəblər üzündən” ölmüş hesab edilir. Koronaviruslu xəstələri öldürən “başqa səbəblər” nədir və bu səbəblər üzündən ölənlərin sayı nəyə görə bu qədər çoxdur - bunu heç kəs izah etmir.



Lakin belə güman etməyə əsas var ki, real vəziyyət qat-qat pisdir. Məsələn, iyunun 1-də həkimlər 1249 nəfərdən analiz götürüblər, onlardan təqribən yarısının analizi müsbət nəticə verib. Bununla belə, sutka ərzində aparılan testlərin sayı iki mini aşmır - resurslar çatışmır. Fəlakətin real miqyasını hakimiyyət orqanları da qismən etiraf edirlər. Paşinyan özü iyunun 7-də bəzi “analitik məlumatlar” dərc edib, həmin məlumatlara görə o anda Ermənistanda yoluxmuş şəxslərin sayı 100 min olub. Sonradan baş nazir bu postunu redaktə edib və həmin rəqəmləri götürüb.

Hakimiyyət orqanları hələlik heç bir başqa tədbir tətbiq etməyə hazırlaşmır. Paşinyan artıq eyhamla bildirib ki, hüquq-mühafizə orqanları epidemiyaya qarşı mübarizə aparmayacaqlar, çünki bu məsələni həll edə biləcək “güc strukturu yoxdur”.

Baş nazir Nikol Paşinyan xəstəliyin kəskin artması barədə fikrini belə ifadə edib: “Biz böhran nöqtəsinə çatmışıq. İndi cəhənnəmə addımlayırıq”.

Ermənistanda fövqəladə vəziyyət rejiminin tətbiq edildiyi bütün müddətdə (martın 16-dan bəri) həyat bir dəqiqə belə sakitləşməyib və faktiki olaraq İsveç ssenarisi üzrə davam edib, lakin skandinavlılara xas olan şüurluluq və təmkin müşahidə olunmayıb. Ermənilər mümkün qədər çox sayda həmvətənlərini yoluxdurmaq üçün əlindən gələni edirlər. “Facebook”un Ermənistan seqmentində artıq iki aydır ki, yayılan foto və videolarda heç bir karantin əlaməti görünmür. İş burasındadır ki, xalq kütlələrinin çox hissəsi bu virusa qeyri-ciddi yanaşır. Bunun da azı iki səbəbi var. Birinci səbəb - “bəlkə də sovuşdu” düşüncəsi və qonşusunun həyatına laqeyd münasibətdir. İkinci səbəb koronavirus təhlükəsini süni şəkildə azaldan və ya ümumiyyətlə inkar edən populyar konspiroloji nəzəriyyələrdir. Ermənilərin əsas götürdüyü cəfəng fikirlər sırasına saxta elmi və gülməli dərəcədə ağlasığmaz nəzəriyyələr palitrası daxildir.

Ən kədərlisi odur ki, bəzi hallarda koronavirus haqqında dezinformasiyanı həkimlər özləri yayır. Onlar bunu şüurlu surətdə, yoxsa peşə yararsızlığı nəticəsində edirlər - məlum deyil. Məsələn, Yerevan Ağsaqqallar Şurasının keçmiş üzvü, həkim təhsili almış Marine Xaçatryan deyir ki, koronavirus çox uzaq məqsədlər üçün yaradılmış bioloji silahdır.

Marine Xaçatryan SARS CoV-2-nin laboratoriyada yaradılması barədə dəfələrlə təkzib olunmuş nəzəriyyəni şərh edərək deyir: “Bizə qarşı bioloji silah tətbiq edə bilərlər. Bu virusun maraqlı tərkibi var: o, dörd elementdən, xalq arasında QİÇS virusu adı ilə məşhur olan virus parçasından ibarətdir. Yəni bu virusun dörd parçası çox ehtimal ki, laboratoriya şəraitində kəsilib götürülüb”.

Dezinformasiya təkcə ayrı-ayrı insanlar tərəfindən deyil, bütöv təşkilatlar və KİV-lər tərəfindən də yayılır. Məsələn, ABŞ Dövlət Departamenti xətti ilə ayrılmış qrant vəsaiti hesabına açılmış “Medmedia.am” saytı tərəfindən bu günlərdə qalmaqal yaranıb. Həkim Gevork Qriqoryanın idarə etdiyi bu sayt sözün hərfi mənasında yuxarıda sadalanan bütün sui-qəsd nəzəriyyələrinin - həm statistikanın şişirdilməsi, həm də qərəzli peyvəndlər barədə uydurmaların yayılması üzrə ixtisaslaşır.

Əgər konspiroloqların təhlükəli fəaliyyətinin qarşısı vaxtında alınsaydı, bəlkə də onlar özlərini daha təvazökar aparardılar, amma belə olmadı. Martın 1-də, Ermənistanda ilk yoluxma halı aşkar edilən gün ölkənin ən populyar “Facebook”-bloqeri olan Paşinyan birbaşa efirdə epidemiyanı ələ salaraq soruşurdu: “Ümumiyyətlə bu koronavirus kimin itidir?”

Bundan iki gün əvvəl Ermənistan Səhiyyə Nazirliyinin rəhbəri Arsen Torosyan sosial şəbəkədə iddia edirdi ki, virus o qədər təhlükəli deyil ki, ona görə ciddi tədbirlər elan edilsin. Həmin vaxt ÜST COVID-19-un yayılmasını beynəlxalq miqyaslı fövqəladə vəziyyət kimi tanımışdı, pandemiyanın və beynəlxalq əhəmiyyətli fövqəladə vəziyyətin elan edilməsinə 2 həftə qalırdı. ÜST ilk dəfə beynəlxalq əhəmiyyətli fövqəladə vəziyyəti 2002-2003-cü illərdə qeyri-tipik SARS Cov pnevmoniyası dövründə elan etmişdi. Son 10 ildə belə rejim cəmi bir neçə dəfə “donuz qripi” A(H1N1) epidemiyası, poliomielit, “Ebola” qızdırması, Zik virusu və SARS Cov-2 koronavirusu ilə əlaqədar tətbiq edilib.

Virus ilk real problem oldu ki, Paşinyan komandası onu əvvəlki hakimiyyət orqanlarının üzərinə yıxa bilmədi. Epidemiyanı lazımınca maliyyələşdirilməyən və lazımınca inkişaf etməmiş səhiyyə sisteminin bütün imkanlarını səfərbər etməsi ilə izah etmək cəhdləri uğursuz oldu. Onda hakimiyyət orqanları başqa yol seçdilər.

Baş nazir özü də vətəndaşlara pis nümunə göstərirdi. Məsələn, translyasiyaların birində o deyirdi ki, koronavirusa simptomsuz yoluxmaq “təbii peyvənd” kimidir və özü də belə xəstələnmək istərdi. May ayının axırlarında ixtiyar sahibləri və Paşinyan Qarabağda təntənəli şam yeməyində görünmüşdü. Onlar pandemiyanın şiddətli vaxtında pozulması ümumiyyətlə mümkün olan bütün qaydaları pozurdular. Yeri gəlmişkən, orada ofisiantlar vardı - Ermənistanın baş naziri özünün yoluxmasının mümkün səbəbi kimi bu peşənin nümayəndələrini göstərmişdi.

Təəccüblü deyil ki, Ermənistanda mart ayında elan edilmiş ikihəftəlik sərt karantin və hələ də saxlanılan digər məhdudiyyətlər heç bir fayda vermədi, yalnız iqtisadiyyata zərbə vurdu. Karantin rejimini pozanlara qarşı hər hansı ciddi sanksiyalar tətbiq edilmirdi, pozuntuların miqyası isə o qədər böyük idi ki, əgər polis hər bir məsuliyyətsiz vətəndaşdan cavab tələb etsəydi, ölkə əhalisinin yarısını saxlamaq lazım gələrdi.

Sadə amerikalılar kimi ermənilər də təkcə polis özbaşınalığına görə çaşıb qalmayıblar. Ölkədə məhdudiyyətlər tətbiq etmək üçün elə ilk cəhd zamanı sosial və iqtisadi vəziyyətdən narazı insanların lokal etirazları başladı. Çox zəif vəziyyətdə olan Ermənistan iqtisadiyyatı ikinci lokdauna davam gətirəcəkmi - bu, çox böyük sualdır.

✍ *Azad*

## “Microsoft” üz tanıma texnologiyasını ABŞ-ın hüquq-mühafizə orqanlarına satmayacaq

**ABŞ-ın “Microsoft” korporasiyası polis tərəfindən bu sistemin istifadəsini tənzimləyən qanunvericilik hazırlanmayana kimi ABŞ-ın hüquq-mühafizə orqanlarına özünün üz tanıma texnologiyasını satmayacaq.** Bu barədə şirkətin prezidenti Bred Smit deyib. “Biz bu texnologiyadan istifadəni tənzimləyəcək insan hüquqlarına əsaslanan milli qanun qəbul edilməyənə qədər üz tanıma sistemini ABŞ polisinə satmayacağıq”, – deyə B.Smit bəyan edib.

Bundan əvvəl ABŞ-ın “IBM” və “Amazon” korporasiyaları da üz tanıma texnologiyalarını hüquq-mühafizə orqanlarına satmaqdan imtina ediblər.

# Əkin sahələri üçün suvarma qrafiki necə təşkil olunur?

***"Kənd Təsərrüfatı Nazirliyinin rəsmi internet səhifəsində suvarma qrafiki bölməsi yaradılıb. Vətəndaş həmin bölməyə keçid etməklə şəxsiyyət vəsiqəsinin fin kodunu daxil edir və onun ərazisinə suyun hansı qrafikdə veriləcəyi barədə məlumat alır. Bu proses yeni başlayıb və hazırda müvafiq qurumlardan bizə məlumatlar daxil olmaqdadır. Yeni məlumatlar daxil olduqca sistemdə öz əksini tapır".***



■ **Bunu hafta.az-a açıqlamasında Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsinin müdiri Vüqar Hüseynov deyib.**

Qurum rəsmisi qeyd edib ki, suvarma qrafikləri su ehtiyatlarının ədalətli, optimal və proporsional bölgüsü prinsipi əsasında tərtib olunmaqla bütün kənd təsərrüfatı məhsullarının istehsalçılarının suvarma suyu ilə təchizatının yaxşılaşdırılmasına xidmət edir: "Ölkə ərazisində su ehtiyatları qeyri-bərabər paylandığından bəzi ərazilər vaxtında suvarıla bilmirdi. Bu da istər-istəməz məhsuldarlığa öz təsirini göstərirdi. Buna görə də digər müvafiq qurumlarla aparılan məsləhətləşmələrdən sonra belə qərara alındı ki, kənd təsərrüfatı məhsullarının istehsalçıları üçün suvarma qrafiki tərtib olunsun. Bu addım bütün fermerlərin suvarma suyu ilə təchizatının yaxşılaşdırılmasına xidmət edir".

Hazırda hansı bölgələrdə daha çox su qıtlığının müşahidə olunduğuna gəlincə, qurum rəsmisi bildirib ki, bu il ümumiyyətlə ölkə ərazisində quraqlıq olub: "Bu proses bir təbiət hadisəsidir. Quraqlıq təkcə Azərbaycanda deyil, bütün dünya ölkələrində müşahidə edilir. Amma təxminən 3 aydır rayonlara gedib-gəldiyimdən şəxsi təcrübəmə əsasən deyə bilərəm ki, ən çox suvarmaya ehtiyac olan ərazilər Aran rayonlarındadır. Yəni, Aran rayonlarında su qıtlığı məsələsi var".

■ **Məlumat üçün xatırladaq ki, ötən həftə Kənd Təsərrüfatı Nazirliyi və "Meliorasiya və Su Təsərrüfatı" ASC suvarma məqsədilə sudan səmərəli və qənaətli istifadəni təmin etmək məqsədilə birgə məlumat yayıb.** Həmin məlumatda bildirilib ki, ölkə ərazisində mövcud su qıtlığı və su anbarlarında yaranmış vəziyyət suvarma məqsədilə sudan səmərəli və qənaətli istifadəni təmin etməyi tələb edir. Suvarma məqsədilə sudan səmərəli və qənaətli istifadə üçün bu sahədə bütün maraqlı tərəflər, o cümlədən kənd təsərrüfatı məhsullarının istehsalçıları cəlb edilməklə suvarma qrafikləri tərtib olunmalı və sudan istifadə həmin qrafiklər əsasında həyata keçirilməlidir.

Odur ki, bütün kənd təsərrüfatı məhsullarının istehsalçılarından fəaliyyət göstərdikləri inzibati ərazi üzrə Kənd Təsərrüfatı Nazirliyinin Dövlət Aqrar İnkişaf Mərkəzlərinə (DAİM), Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin yerli bölmələrinə və Sudan İstifadəedənlər Birliklərinə (SİB) müraciət edərək suvarma qrafiklərinin tərtib olunmasında fəal iştirak etmələri tələb olunur.

Suvarma qrafiklərini kənd təsərrüfatı məhsullarının istehsalçıları imzaladıqdan sonra Kənd Təsərrüfatı Nazirliyinin Dövlət Aqrar İnkişaf Mərkəzləri, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin yerli bölmələri və Sudan İstifadəedənlər Birlikləri təsdiq edir. Təsdiqlənmiş suvarma qrafikləri Kənd Təsərrüfatı Nazirliyinin rəsmi internet saytında (<www.agro.gov.az/qrafik>) inzibati ərazi vahidləri üzrə qruplaşdırılaraq yerləşdirilir. Suvarma qrafiki həmin internet saytında yerləşdirildikdən sonra tətbiq edilir.

Yeri gəlmişkən, indiyədək suvarma qrafikini imzalayan kənd təsərrüfatı məhsulları

istehsalçılarının və əkin sahələrinin sayı aşağıdakılardır:

Əkin sahələri - 180329

Fiziki şəxslər - 74278

Hüquqi şəxslər - 516

Məlumat təqdim etmiş rayonlar - 38

Məlumat təqdim etmiş kəndlər - 490.

✍ ***Sevinc***

# Hər gün 3-5 adamın ölməsi vəziyyətin nə qədər ciddi olduğunu göstərir



◂ əvvəli 1-ci səhifədə

Bu cür məhdudiyyət görünür, bəzi təşkilatları məcbur edib ki, bu günə qədər qeyri-formal işlətdikləri şəxsləri artıq rəsmiləşdirsinlər, onlara sistemdə icazə ala bilsinlər. Bu məhdudiyyət qeyri-formal məşğulluğun aradan qaldırılması üçün bir təkan rolunu oynaya bildi. Apreldə çoxlu sayda əmək müqaviləsinin imzalanmasının səbəblərindən biri də icaze.e-gov.az sistemindən icazə almaq üçün olub", - deyə Ü. Mehdiyev vurğulayıb.

"Çimərliklərlə bağlı növbə sistemini Bakı şəhər İcra Hakimiyyəti ilə biz birlikdə hazırlayırıq". Ülvi Mehdiyev bildirib. Ü. Mehdiyev deyib ki, elektron növbə sistemi hazırlanacaq: "Çimərliyin qəbul edə biləcəyi sayda növbə veriləcək".

"Sərtləşdirilmiş karantin rejiminin tətbiq olunacağı 14 və 15 iyun tarixlərində Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərinin, Abşeron, Salyan, Kürdəmir, Yevlax və İsmayıllı rayonlarının ərazisində xüsusi postlarla bərabər, mobil postlar da fəaliyyət göstərəcək".

Bunu isə Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında Daxili İşlər Nazirliyinin (DİN) Baş Dövlət Yol Polisi İdarəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis polkovniki Kamran Əliyev deyib. O bildirib ki, icazəsi olan şəxslərdən başqa, digər şəxslər evlərini tərk etməsinlər: "Dəfndə iştirak edəcək şəxslər "102" xidmətindən icazə aldıqdan sonra şəxsi nəqliyyat vasitəsi ilə hərəkət edə bilərlər. Digər rayonlarda yaşayan sakinlər sərt karantin rejimi tətbiq olunmuş rayonun ərazisindən sərbəst keçə bilərlər. Ancaq sərt karantin rejimi tətbiq olunan rayonda hansısa yaşayış məntəqəsinə daxil ola bilməz, başqa torpaq yola girə bilməzlər. Bu halda cərimələnəcəklər". "Xüsusi sərtləşdirilmiş karantin günlərinlə fəaliyyətinə icazə verilən təşkilatların əməkdaşlarının avtomobilləri barədə məlumat da "icaze.e-gov.az" portalına daxil edilməlidir". Kamran Əliyev bildirib. K. Əliyev deyib ki, həmin şəxslər avtomobillərində ailə üzvlərini apara bilməz: "Ev heyvanları ilə bağlı sui-istifadəyə yol vermək olmaz. Düşünməsin ki, heyvanı 1-2 saat özü, sonra da başqaları gəzdirə bilər".

"Son günlər ölüm sayı əvvəlki kimi deyil, hər gün 3-5 adamın ölməsi vəziyyətin nə qədər ciddi olduğunu göstərir". Kamran Əliyev bildirib. Onun sözlərinə görə, nəzərə almaq lazımdır ki, gündəlik yoluxma 300-dən artıqdırsa deməli vəziyyət ciddidir: "Ona görə də hər kəs qaydalara əməl etməlidir, bu həm özümüzün, həm də başqalarının səhhətini qorumaq üçündür".

"Şəxs karantin rejimi zamanı polisin tələblərinə riayət etmirsə, polis şöbəsinə aparıla bilər". Kamran Əliyev bildirib. K. Əliyev deyib ki, İnzibati Xətalar Məcəlləsinə əsasən, karantin rejimini pozanlara inzibati cərimələr tətbiq olunur: "Başqalarını yoluxdurmaq təhlükəsi olan şəxs karantin rejimini pozursa, o şəxs artıq cinayət məsuliyyəti daşıyır". K.Əliyev həmçinin qeyd edib ki, etibarnaməsi olan şəxslər da etibarnaməni "icazə.gov.az" saytına daxil edə bilərlər: "İcazə alınacaq kateqoriyalara daxil olan insanlara belə şərait yaradıla bilər".

"Ölkədə xüsusi karantin rejimində polis gücləndirilmiş rejimdə çalışır". Kamran Əliyev bildirib. K. Əliyev deyib ki, yol polisi mayın 13-dək karantin rejiminin pozulması ilə bağlı inzibati xəta barədə qərar verməyib: "Protokollar üzrə də qərarlar çıxarılmırdı. Bu qərarlar digər polis orqanlarının rəhbərləri və polis sahə müvəkkilləri tərəfindən çıxarılıb. Mayın 13-dən sonra bu səlahiyyət yol polisinə verildi və bu qərarlar yol polisi tərəfindən çıxarılmağa başlandı".

✍ ***Hafta.az***

# FHN-in psixoloji yardımla bağlı qaynar xəttinə müraciətlərin sayı açıqlanıb

**"Ölkəmizdə mövcud karantin rejimində psixoloji problemlər yaşayan vətəndaşlara dəstək olmaq məqsədilə Fövqəladə Hallar Nazirliyi tərəfindən 8 aprel 2020-ci il tarixindən etibarən "112" qaynar telefon xətti vasitəsilə nazirliyin peşəkar psixoloqları tərəfindən təcili psixoloji yardımın göstərilməsi işi təşkil olunub".**



Bu barədə hafta.az-a Fövqəladə Hallar Nazirliyindən bildirilib. Xəbərə görə, növbəlilik əsasında 24 saat fasiləsiz xidmət aparan FHN-in xüsusi hazırlıqlı psixoloqları vətəndaşlara lazımi psixoloji yardım göstərirlər. Ötən müddət ərzində psixoloji yardımla bağlı Bakı şəhəri və respublikanın müxtəlif regionlarından qaynar xəttə 1000-dən çox müraciət daxil olub. Müraciətlər, əsasən, COVID-19 infeksiyasına özlərinin və yaxınlarının yoluxma riskindən narahatlıq keçirən, yaşlı ailə üzvlərinə görə gərginlik yaşayan, təklikdən və ünsiyyət azlığından əziyyət çəkən, psixoloqlarla üzbəüz danışmaqdan sıxılan, psixosomatik əlamətlər yaşayan və digər psixoloji problemlərlə üzləşən vətəndaşlar tərəfindən olub.

Qeyd edək ki, psixoloji yardımın təşkil olunmasında əsas məqsəd vətəndaşları psixoloji problemləri ilə tək qoymamaq, mənəvi dəstək olmaq, karantin rejimi dövründə onlara kömək etməkdən ibarətdir. Bununla bağlı vətəndaşlar Nazirliyin "112" qaynar telefon xəttinə sutkanın istənilən vaxtı zəng vurub müvafiq psixoloji dəstək ala bilərlər.

# Gənc ədliyyə işçiləri Milli Qurtuluş Gününə həsr olunmuş onlayn mühazirə keçirilib

**1993-cü ilin iyun ayının 15-də ümummilli lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı müasir Azərbaycan tarixinə Milli Qurtuluş Günü kimi daxil olub.**



Bu gün xalqımızın ən əlamətdar bayramlarından olmaqla hər il ölkəmizdə geniş qeyd olunur, bu münasibətlə ədliyyə orqanlarında xüsusi karantin rejiminə əməl olunmaqla silsilə tədbirlər keçirilir.

Nazirlik tərəfindən gənc ədliyyə işçilərinin, eləcə də bu il "Könüllülər ili" çərçivəsində ədliyyə fəaliyyətinə geniş cəlb olunmuş könüllülərin hərtərəfli, dövlətçiliyə sədaqət, milli və vətənpərvərlik ruhunda inkişafına, maariflənməsinə hər zaman böyük önəm verilir. Ulu öndərin zəngin siyasi irsinin və dövlətçilik amallarının gənc nəslə aşılanması məqsədilə iyunun 11-də Ədliyyə Nazirliyində bir qrup gənc ədliyyə işçilərinin və könüllülərinin iştirakı ilə videkonfrans formatında onlayn mühazirə keçirilib.

Tədbirə dəvət olunmuş Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, professor Hikmət Məmmədov müstəqil dövlətimizin qurtuluş tarixi, Heydər Əliyevin xilaskarlıq missiyası və zəngin dövlətçilik fəaliyyəti barədə məruzə ilə çıxış edib.

O, Azərbaycan xalqının milli qurtuluş gününə gedən yoldan bəhs edərək müstəqilliyimizin ilk illərində xalqımızın səriştəsiz idarəçiliklə, ölkədaxili xaos və vətəndaş qarşıdurması, erməni təcavüzü ilə üzləşdiyini diqqətə çatdırıb, məhz belə bir ağır dövrdə hakimiyyətə qayıdan Ümummilli Liderin xilaskarlıq missiyası nəticəsində müstəqilliyimizin qorunub möhkəmləndiyini, dövlətlə xalqın birliyinin təmin edildiyini, azərbaycançılıq ideologiyasının bərqərar edildiyini, demokratik hüquqi dövlətin qurulduğunu vurğulayıb.

Çıxış edən gənclər ulu öndər Heydər Əliyevin dövlətçilik prinsiplərinə daim sadiq qalacaqlarını, dahi öndərin işıqlı xatirəsinin xalqımızın yaddaşında əbədi yaşayacağını bildiriblər. Tədbirin davamı olaraq Ədliyyə nazirinin müavini Toğrul Musayevin iştirakı ilə qonaq nazirlikdə Heydər Əliyevə və ədliyyə tarixinə həsr olunmuş muzeylə tanış olub, dahi şəxsiyyətin xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərindən bəhs olunaraq, onun siyasi irsinin indiki və gələcək nəsillərə örnək olduğu qeyd edilib. Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızın davamlı inkişafının təmin olunması, bu istiqamətdə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın gördüyü mühüm işlər, rəhbərlik etdiyi Heydər Əliyev Fondunun Ulu Öndərin ideyalarının və siyasi irsinin öyrənilməsindəki mühüm fəaliyyəti xüsusilə vurğulanıb.

✍ ***Hafta.az***

# Bakıda binaların qarşısına zibil konteynerləri qoyulacaq

**"Bakıda hər gün dezinfeksiya işlərinə 2 mindən çox insan cəlb olunur". Bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında Bakı şəhər İcra Hakimiyyəti başçısı Aparatının rəhbəri Elgin Həbibullayev bildirib.**

E. Həbibullayev deyib ki, İcra Hakimiyyətinin balansında 11 min 435 bina var, bu binaların liftləri də həftədə iki dəfə dezinfeksiya edilir: "Şəhərdə məişət tullantılarının daşınması xüsusi karantin günlərində müəyyən problemlər ola bilər. Ona görə də hər bir blokun qarşısına zibillərin atılması üçün xüsusi konteynerlər yerləşdiriləcək. İki gün üçün 1000-dən çox belə konteyner quraşdırılacaq". "Dizenfeksiya üçün tək xlordan istifadə edilmir". Elgin Həbibullayev bildirib. E. Həbibullayev deyib ki, yollarda və liftlərlə fərqli dezinnfeksiya maddələrindən istifadə olunur: "Dezinfeksiya maddələrinin hansı səviyyədə və hansı dərəcədə istifadə edilməsi də müvafiq normalarla müəyyənləşir. Onu hansısa kommunal işçi müəyyənləşdirmir. Bu məsələlər ciddi nəzarətdə saxlanılır". "Hazırda xəstə sayı artır. Xəstə o qədər çoxdur ki, yer çatışmazlığı yaşana bilər". Vasif Əliyev bildirib. TƏBİB-in infeksion xəstəliklər üzrə işçi qrupunun rəhbəri qeyd edib ki, bu səbəbdən tədris kurslarının açılmasına yoluxma sayına uyğun olaraq qərar veriləcək: "Hazırda bununla bağlı konkret fikir yoxdur".

# Böyük Britaniya iqtisadiyyatı rekord səviyyədə azalıb



**COVID-19 pandemiyası səbəbindən qlobal iqtisadiyyatın bir çox sahələrində durğunluq yaşandığına görə Böyük Britaniya iqtisadiyyatı apreldə aylıq müqayisədə rekord səviyyədə - 20,4% azalıb.**

Apreldə Böyük Britaniya iqtisadiyyatı illik müqayisədə 24,5% azalıb. Bu ilin I rübündə isə ölkənin ÜDM-i 2019-cu ilin IV rübü ilə müqayisədə 10,4% azalıb.

Təkcə aprel ayında dominant olan xidmət sektorunda məhsul istehsalı 19%, sənaye sektorunda 24%, tikinti sektorunda isə 50% azalıb.

# Aİ ilə Azərbaycan arasında hərtərəfli saziş imzalanmalıdır

**"Avropa İttifaqı (Aİ) ilə Azərbaycan arasında yeni, hər məsələni əhatə edən ikitərəfli saziş imzalanmalıdır". Bunu Macarıstanın Xarici işlər və xarici ticarət naziri Peter Siyarto Aİ və Şərq tərəfdaşlığı ölkələrinin xarici işlər nazirlərinin iclasından sonra onlayn konfransda deyib.**

Nazir bildirib ki, Şərq tərəfdaşlığı post-pandemiya dünyasında Aİ üçün böyük əhəmiyyət kəsb edir: "Aİ-yə tərəfdaşlar və müttəfiqlər qismində üçüncü ölkələr lazımdır, bu günədək bu qurum Şərq tərəfdaşlığının vacibliyini yalnız sözdə vurğulayırdı. Amma bu iclasda dörd konkret təklif irəli sürüldü". Onun sözlərinə görə, bu təkliflərdən biri Aİ ilə Azərbaycan arasında hərtərəfli sazişlə bağlıdır: "Azərbaycanla tərəfdaşlıq barədə saziş imzalanmalıdır. Təbii qaz hasilatının daim artdığı Azərbaycan enerji ehtiyatlarının tədarükü məsələsində vacib rol oynayacaq".

# Ən yüksək vergilər tətbiq edən ölkələr




**Dünya İqtisadi Forumu ən yüksək vergilər tətbiq edən ölkələrin adlarını açıqlayıb. Dünya İqtisadi Forumunun nəzərdən keçirdiyi göstəricilərdən biri ölkədə vergi yüküdür. Bu zaman daha yüksək ballar daha aşağı rəqabətlilik deməkdir. Bundan ötrü Dünya Bankından ümumi vergi dərəcəsi haqqında məlumatlar alınır.**

Aşağıda ümumi vergi dərəcəsi 50 faizdən yuxarı olan ölkələr barədə məlumat verilib.

Çad - vergi yükü 63,5 faiz. Çad iqtisadiyyatı kənd təsərrüfatına əsaslanan çox yoxsul bir ölkədir. Burada dövriyyə vergisi 1,5 faiz, mənfəət vergisi isə 40 faiz təşkil edir, bu zaman şirkətlər həmin vergilərdən birini - daha yüksək olan vergini ödəyirlər.

Çin - vergi yükü 64,6 faiz. Bu siyahıda bir çox digər ölkələr kimi, Çində də şirkətlər mənfəət vergisinə deyil, dövriyyə vergisinə cəlb edilir.

İtaliya - vergi yükü 65,4 faiz. İtaliya yüksək vergiləri ilə tanınır. Lakin vergi yükünün səviyyəsinə görə Avropada yalnız ikinci yeri tutur.

Venesuela - vergi yükü 65,5 faiz. Venesuela hökuməti Uqo Çavesin prezidentliyi dövründə yüksək vergi siyasəti həyata keçirirdi - xarici neft şirkətləri xüsusilə yüksək vergiyə cəlb olunurdu.

Nikaraqua - vergi yükü 65,8 faiz. 2012-ci ildə Beynəlxalq Valyuta Fondu ölkəyə mürəkkəb və şaxələnmiş vergi sistemini, o cümlədən korporasiyaların vergitutmasını sadələşdirməyi tövsiyə edib.

Fransa - vergi yükü 66,6 faiz. Bu ölkə Avropada vergi yükünün səviyyəsinə görə birinci yerdədir. Lakin, ölkənin hazırkı hökuməti vergi sisteminə yenidən baxılacağına və korporativ vergiləri azaldacağına söz verib.

Qvineya - vergi yükü 68,3 faiz. Qvineyada şirkətlər ötən il üçün vahid dövriyyə vergisini ödəyirlər.

BÖLGƏ

# QUSARIN Həsənqala kəndində canavarlar 12 qoyunu parçalayıb

✔ **Qusar rayonunun Həsənqala kəndində canavarlar təsərrüfata hücum edib.** Kənd sakini Şöhrət Nemətovun tövləsinə soxulan yırtıcılar 11 qoyunu parçalayıb. Bundan başqa, canavarlar digər kənd sakini Cavanşir Zeynalovun da bir baş qoyununu parçalayıb.



Şöhrət Nemətov bildirib ki, hadisə gecə saat 3-4 radələrində baş verib. Canavarlar hasardan aşaraq həyətyanı sahədəki tövləyə soxulub. İki ay əvvəl də kənddə canavarların təsərrüfata hücumu qeydə alınıb. Faktla bağlı Qusar Rayon Baytarlıq İdarəsinə və yerli icra qurumlarına məlumat verilib.

# Dünyada “yaşıl” texnologiyalara maraq artıb

Ekologiya və ətraf mühitin mühafizəsi

## Mütəxəssislər hesab edirlər ki, Yer kürəsində alternativ enerjidən istifadə səviyyəsinin artması qlobal istiləşmə meyillərini azaldacaq

***COVID-19 mədən yanacağı növləri ilə bağlı sənayeyə ciddi zərbə vurub. Bununla əlaqədar, bərpaolunan enerji mənbələrinə keçid barədə ciddi fikirləşmək lazımdır, çünki bu mənbələr ekoloji cəhətdən təmiz olmaqla bərabər, həm də iqtisadi baxımdan sərfəlidir. Azərtac BMT-nin saytına istinadla xəbər verir ki, BMT-nin Ətraf Mühit Proqramının (UNEP) himayəsi ilə hazırlanmış yeni məruzə bu məsələlərə həsr edilib. Məruzədə qeyd edilir ki, son illərdə müəssisələrin və fermerlərin çoxu yel dəyirmanları və ya günəş batareyaları şəklində enerji mənbələrindən fəal istifadə edirlər. Bəzi dövlətlərdə su elektrik stansiyalarına üstünlük verilir. İnvestorlar “yaşıl” texnologiyaların inkişafı ilə bağlı layihələri həvəslə maliyyələşdirirlər.***



Dünyada bərpaolunan enerji mənbələrinə tələbat artır. Məruzədə bildirilir ki, bərpaolunan enerji almaq üçün qurğuların dəyəri azalır, onların gücü isə sürətlə artır. Deməli, investisiyalar böyük dividendlər gətirir. Məsələn, 2019-cu ildə iri su elektrik stansiyaları istisna olmaqla digər bərpaolunan enerji mənbələrinin gücü 2018-ci ildəki ilə müqayisədə 184 GVt artıb. Müqayisə üçün xatırladaq ki, 2018-ci ildə bu sahəyə qoyulmuş investisiyalar əvvəlki ildəkindən cəmi 1 faiz çox olaraq 282,2 milyard dollara çatıb.

Texnoloji təkmilləşdirmələr sayəsində külək və günəş qurğularının inkişafı ilə bağlı xərclər azalmaqda davam edir. Bundan əlavə, bərpaolunan enerji mənbələri miqyası artır, hərraclarda rəqabət sərtləşir. 2019-cu ilin ikinci yarısında yeni inşa edilmiş günəş fotoelektrik stansiyalarından enerji alınması üçün xərclər 10 il əvvəlki göstərici ilə müqayisədə 83 faiz aşağı olub.

Bərpaolunan enerji mənbələrinin inkişaf etdirilməsi koronavirus böhranından sonra iqtisadiyyatın bərpasına, yeni, ekoloji cəhətdən təmiz və təhlükəsiz iş yerləri yaradılmasına kömək edə bilər.

2019-cu ildə dünya üzrə ümumi enerji istehsalında bərpaolunan enerji mənbələrinin payı 13,4 faiz, 2018-ci ildə 12,4 faiz, 2009-cu ildə isə 5,9 faiz olub.

Yeri gəlmişkən, qlobal istiləşmə planetin biomüxtəlifliyi üçün ciddi təhlükə hesab edilir. Buzlaqların əriməsi, bitkilərin vaxtından əvvəl çiçəkləməsi, atmosfer havasının temperaturunun yüksəlməsi - bütün bunlar qlobal iqlim dəyişmələrinin əlamətləri hesab edilir. Son 150 il ərzində axırıncı 12 ilin 11 ili bütün dövrlərin ən isti illəri sayılır. Yer tarixində 20 dəfə rekord isti yay dövrü olmuşdur ki, bunlar da 1980-ci ildən indiki dövrə qədər təsadüf edir. Deqradasiyaya məruz qalmış, həyat qabiliyyətini itirmiş ölü zonalar getdikcə artır. Bu ekoloji fəlakətin bir səbəbi evtrofikasiya - dəniz sularında üzvi maddələrin (xüsusən azot və fosfor tərkibli) ifrat konsentrasiyası ilə bağlıdır.

Digər tərəfdən, coxsaylı məlumatlar sübuta yetirir ki, qlobal istiləşmə insanların sağlamlığına ciddi təsir göstərir. Faciəli meteoroloji hadisələr, ərzaq və su ehtiyatlarına təsir edən qeyri-sabit iqlim şəraiti, infeksion xəstəliklərin baş verməsinin yeni modelləri və ekosistemlərin dəyişməsi ilə xəstəliklərin yaranması - bütün bunlar qlobal istiləşmədən irəli gəlir və sağlamlıq üçün təhlükələr törədir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatlarına əsasən, iqlim və hava artıq sağlamlığa güclü təsir göstərir: yüksək hərarət müddətində və daşqınlar kimi təbii fəlakətlər zamanı, malyariya kimi həyat üçün təhlükəli olan transmissiv (ötürücü) xəstəliklərin modelləri dəyişir. Zəif səhiyyə infrastrukturları olan, əsasən inkişaf etməkdə olan ölkələr xaricdən yardım göstərilmədikdə bu dəyişikliklərə hazırlaşmaq və zəruri cavab tədbirləri görmək iqtidarında olmayacaqlar.

Bundan başqa, son 50 ildə insan fəaliyyəti, xüsusilə də yer altından çıxan yanacağın yandırılması nəticəsində havaya iqlimə qlobal təsir edən külli mjqdarda karbon qazı və digər istixana qazları atılıb. Karbon qazının atmosferdəki miqdarı ”sənaye inqilabı”ndan əvvəlki səviyyədən 30faizdən çox artıb ki, bu da çox isti havanın atmosferin aşağı təbəqələrində saxlanılmasına gətirib çıxarır. Bunların nəticəsində baş verən iqlimin qlobal dəyişməsi sağlamlıq üçün bir sıra - yüksək hərarətdən ölüm, infeksion xəstəliklərin modellərinin dəyişməsi və s. kimi təhlükələr törədir. Havanın qısamüddətli intensiv dəyişməsi də, ürək və respirator (nəfəs yolları) xəstəliklərindən ölüm hallarını artıra bilən istilik stressini (hipertermiya) və ya həddindən artıq soyumanı (hipotermiya) yaradaraq, saglamlığa ciddi təsir göstərə bilər. Aparılan tədqiqatlar göstərir ki, 2003-cü ilin yay aylarında Qərbi Avropadakı ən yüksək hərarətlər ölüm hallarının kəskin artmasına səbəb olub.

Burada diqqətçəkən bir məsələ də var ki, dəniz səviyyəsinin artması qlobal istiləşmənin digər nəticəsi - sahilboyu rayonların su altında qalması təhlükəsini artırır. Bu da əhalinin miqrasiyası ilə nəticələnə bilər. Hazırda dünya əhalisinin 60 faizdən çoxu sahil xəttinin 60 km məsafə dairəsində yaşayır. Misirin Nil çayının deltası, Banqladeşdə Qanqa-Brahmaputra çayının deltası və kiçik ada ölkələri kimi tanınan Hind okeanında Maldiv adaları və Sakit okeanda Marşall Adaları daha çox təsirə məruz qalan regionlardan hesab olunur. Daşqınlar bilavasitə travma və ölümlə nəticələnə bilər, eləcə də su vasitəsi ilə keçən xəstəliklərə və transmissiv xəstəliklərə yoluxma riskini artıra bilər. Əhalinin miqrasiyası isə gərginliyi və münaqişələrin potensial riskini artıra bilər. Düşən yağıntıların modellərinin dəyişməsi şirin su ehtiyatlarının yaradılmasına təsir edə bilər. Dünyada hər on nəfərdən dördü su çatışmazlığından əziyyət çəkir. Su çatışmazlığı və suyun pis keyfiyyəti gigiyena və sağlamlıq üçün təhlükələr törədə bilər. Bu isə il ərzində təxminən 1,8 milyon insanın ölümünə səbəb olan diareyanın (ishal), eləcə də korluğa gətirib çıxaran traxoma - göz infeksiyasının və digər xəstəliklərin yaranması riskini artırır.

Qeyd edək ki, qlobal istiləşmənin qarşısının alınmasında “yaşıl” texnologiyaların tətbiqi zəruri sayılır. “Yaşıl” texnologiya təbiətdən yararlanan qurğuların hazırlanması, işə salınması və bu zaman ətraf mühit üçün tam zərərsiz və ya minimal zərərlə çalışan texnologiyalardır. Bunu nəzərə alaraq, bir sıra ölkədə “yaşıl” texnologiyaların tətbiqi göstərilən problemlərin həll edilməsi yollarından biri hesab edilir.

Mütəxəssislərin apardıqları tədqiqatların nəticəsinə əsasən, son 50 ildə dünya üzrə təbii resurslara tələbat ekoloji fəlakətləri də özüylə gətirib. Müvafiq hesablamalar görə, 1961-ci ildə təbii resurslara tələbat yer kürəsinin bioloji bərpaetmə gücünün 70 faizinə barabər idi. 1980-ci illərə sözügedən tələbat artıq Yer kürəsinin gücünü üstələməyə başlamış və 1999-cu ildə istifadə edilən təbii resurslar yer kürəsinin yenidən bərpa gücünün 120 faizini təşkil etmişdir. Yəni, istehlak edilmiş resursların bərpa olunması üçün 1,2 ədəd Yer kürəsi tələb olunur.

Ekspertlər bildirirlər ki, “yaşıl” iqtisadiyyat, əslində yeni iqtisadiyyat anlayışı olaraq da ifadə edilə bilər. İnsanın və təbiətin dəyərinin bilinməsi, insanların rifahını yüksəldib yoxsulluğun azaldılması, məhdud təbii ehtiyatların effektiv və optimal şəkildə istifadə edilməsi bu yeni iqtisadi anlayışın təməlini meydana gətirir. Hazırda “yaşıl” iqtisadiyyat anlayışının nəyi əhatə etdiyinin dəqiq olaraq müəyyənləşmiş və hamı tərəfindən qəbul edilən tərifi yoxdur. Bu səbəblə, ayrı-ayrı ölkələr özlərinin xüsusi şərtləri çərçivəsində fərqli təriflər ortaya qoyurlar.

Qeyd edək ki, bu gün dünya ölkələrinin keçid etməyə çalışdığı “yaşıl” iqtisadiyyat təşəbbüslərini Azərbaycan hökuməti də dəstəkləyir. Məsələn, 2012-ci ildə qəbul edilən “Azərbaycan 2020: Gələcəyə baxış” inkişaf konsepsiyası “yaşıl” iqtisadiyyatın inkişafına geniş imkanlar yaradır. Konsepsiyanın əsas hədəflərindən biri ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa nail olmaqdır. Sənəddə göstərilib ki, biomüxtəlifliyin qorunması, yanacaq-enerji kompleksinin ətraf mühitə mənfi təsirinin neytrallaşdırılması, dənizin və onun akvatoriyasının çirklənməsinin aradan qaldırılması və qorunması, yaşıl ərazilərin bərpası və mövcud resursların səmərəli mühafizəsi istiqamətində zəruri tədbirlər gələcəkdə də davam etdiriləcək.

***✍ Sevinc***

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi əsasında hazırlanıb.*

# Təhsil haqqı dəyişikliyi hər müəssisənin daxili prosedurudur

**Ali təhsil müəssisələrinə qəbul imtahanlarının keçirilməsinə az bir müddət qalıb. Qəbuldan sonrakı mərhələdə universitetlərə ödənişli əsaslarla qəbul olunanların çoxu imtina edir.**



Ekspertlər təhsil haqlarının yüksək olması qənaətindədirlər. Həmçinin bölgədə yerləşən universitetlərin təhsil ödənişi, Bakıda yerləşən təhsil müəsissələri ilə demək olar ki, fərqlənmir. Yeni tədris ilində universitetlərdə təhsil ödənişləri üzrə dəyişiklik olacaqmı?

Bu barədə hafta.az-a Təhsil Nazirliyindən bildirilib ki, yeni tədris ili üçün elan olunan ixtisaslar üzrə Ali təhsil müəssisələrində təhsil haqqı normativləri Dövlət İmtahan Mərkəzinin növbəti jurnal buraxılışında çap olunacaqdır:

“Bir nüansı diqqətinizə çatdıraq ki, təhsil haqqı dəyişikliyi hər müəssisənin daxili prosedurudur və universitetlər tərəfindən müəyyənləşdirilir”.

■ **Təhsil eksperti Kamran Əsədov isə düşünür ki, Azərbaycanda təhsil haqqı dünyanın ilk minlikdə olan universitetlərin təhsil haqqından çoxdur:** “Tələb olunan və ödənilən təhsil haqqının fonunda verilən təhsilin keyfiyyəti də aşağıdır. Buna rəğmən tələb olunan təhsil haqları dünyanın ilk minlikdə olan universitetlərin təhsil haqqından çoxdur. Buna görə, universitetlərimizin hazırladığı kadrlara nə daxili əmək bazarında, nə də xaricdə yer var. Ali məktəblərə qəbul planı yerlərinin 70 faizi ödənişli əsaslarla, 30 faizi isə dövlət sifarişli həyata keçirilib. Pulsuz adlandırdığımız, artıq 10 ildən çoxdur dövlət sifarişli hesab etdiyimiz yerləri dövlətin hara sifariş etdiyi məlum deyil. Universiteti bitirdikdən sonra tələbə işlə təmin edilməlidir. Dövlət bu şəxs üçün 4 il ərzində bütün təhsil xərclərini ödəyir, lakin həmin şəxs işsiz qalır”. Ekspert əlavə olaraq qeyd etdi ki, təhsil qiymətləri fantastikdir və Azərbaycan reallığını əks etdirmir:

“Son 5 il ərzində 7 mindən çox tələbə təhsil haqqını ödəyə bilmədiyinə görə, təhsildən uzaqlaşıb və ya uzaqlaşdırılıb. Qəbul plan yerlərində ciddi şəkildə vəziyyət dəyişməlidir. Kadrlar Azərbaycan dövlətinin əmək bazarının ehtiyaclarını ödəyir. Sonradan əmək bazarında iş tapdıqda təhsil haqlarını vergi və digər rüsumlar vasitəsilə dövlətə geri ödəyəcəklər”.

***✍ Ruzbeh***

# Şagirdlərin sağlamlığı bizim üçün ən önəmli məsələdir

**Təhsil naziri Ceyhun Bayramov XI sinif şagirdlərini, müəllimləri və valideynləri “Son zəng” münasibətilə təbrik edib. Nazir virtual “Son zəng”də çıxışı zamanı bildirib:**



**Ceyhun Bayramov,**
Təhsil naziri

”Bilirik ki, bu günü səbirsizliklə gözləyirdiniz. Etiraf edim ki, sizin üçün unudulmaz olan “Son zəng”i arzuladığımız kimi keçirə bilməməyimiz bizi də məyus edir. Lakin bunun səbəbi bütün dünyada baş verən pandemiyanın gətirdiyi yeni bir reallıqdır. Sizin sağlamlığınız bizim üçün ən önəmli məsələdir”.

Nazir deyib ki, bu tədris ilinin ikinci yarımilindən şagirdlər doğma məktəblərindən, müəllimlərindən, müəllimlər isə şagirdlərindən ayrı düşməli oldular:

“Bilirik ki, məktəb hər bir şagird və müəllim üçün ikinci evi qədər doğmadır. Lakin bizim müəllimlərimizin yorulmaz fəaliyyəti nəticəsində bu ayrılıq bir o qədər hiss olunmadı. Fürsətdən istifadə edərək, pandemiya şəraitində təhsil prosesinin fasiləsizliyini təmin etmək üçün səylərini əsirgəmədən fədakar çalışan müllimlərimizə öz dərin təşəkkürümü bildirmək istərdim. Onlar öz şəxsi qayğılarını unudaraq televiziya vasitəsilə evdən virtual dərslər keçməklə hər zaman şagirdlərin yanında oldular, onların təhsili naminə çalışdılar”.

Ceyhun Bayramov bildirib ki, bu dövr valideynlər üçün də bir sınaq oldu: “Min bir əziyyətə qatlaşaraq evdə şagirdlərə müəllimlik etdiklərinə görə, onların hər bir qayğısına böyük səbrlə yanaşdıqlarına görə hörmətli valideynlərimizə xüsusi təşəkkür etmək istərdim. Əziz məzunlar, sizi bir daha ürəkdən təbrik edir, həyatınızın yeni mərhələsində sizə uğurlar arzu etmək istərdim. Yolunuz açıq olsun!” Nazir rəmzi “Son zəngi” öz oxuduğu məktəbdə səsləndirib.

# Bakıda virusa yoluxmuş rayon qeydiyyatlı şəxslər də xəstəxanalara yerləşdirilib



**Son günlər ölkədə koronavirusa yoluxanların sayı artmaqda davam edir. Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) Azərbaycanda koronavirusla bağlı iyunun 11-nə olan statistik göstəriciləri açıqlayıb.** Məlumata əsasən Azərbaycanda daha 352 nəfər koronavirusa yoluxub, 210 nəfər sağalıb, 6 nəfər isə vəfat edib. Həmçinin bu gün ölkədə 3 844 nəfər aktiv koronavirus xəstəsidir. Onlardan 127 nəfər reanimasiyada, 22 nəfər isə süni tənəffüs cihazındadır.

Bu qədər yoluxma faktı olduğu halda, maraqlıdır, əgər vətəndaşda koronavirus əlamətləri aşkar olunarsa, xəstəxanaya və ya digər karantinə alınacaq yerlərə qədər hansı proseduralar keçirilir?

■ **Bu barədə hafta.az-a danışan TƏBİB-in mətbuat xidmətinin rəhbəri Rəvanə Əliyeva bildirdi ki, əlamətləri olan şəxs ilk öncə 103-ə müraciət edir:**

”103 xidməti bütün saatlarda vətəndaşların zəngini qəbul edir. Və tibb işçiləri həmin ünvana gəlib test üçün nümunə götürülür və testin nəticələri bəlli olana qədər gözlənilir. Daha sonra xəstəliyin ağırlıq dərəcəsinə görə xəstəxanaya və ya karantin müəssisəsinə yerləşdirilir”.

Bakı-Abşeronda yaşayan rayon qeydiyyatlı vətəndaşlarda koronavirus əlaməti olarsa, onların qeydiyyatı olduğu xəstəxanadan arayış alınmalıdırmı? Bəzi vətəndaşlar bununla bağlı bildirirlər ki, rayon qeydiyyatına görə problemlər olur.

TƏBİB sözçüsü buna münasibət bildirərkən dedi ki, koronavirus əlamətləri olan şəxslər qeydiyyatından asılı olmayaraq, olduqları yerdə “təcili yardıma” müraciət edərək test üçün çağırış edə bilərlər: ”Buna görə heç bir problem yaradılmır. Və bu günə qədər də, virusa yoluxmuş rayon qeydiyyatlı şəxslər də onlar üçün ayrılmış xəstəxanalara yerləşdirilib”.

***✍ Ruzbeh***

# "Cəmiyyət təhlükəni hiss etməli, müvəqqəti narahatlığa dözümlü olmalıdır"

**Yeni koronavirus pandemiyası öz arealını genişləndirdikcə vətəndaşlara çağırışlar olunur, özlərini, yaxınlarını yoluxdurmamaları üçün karantin qaydalarına riayət etmələri tövsiyyə olunur.**

Bəs bu gün dövlətin qoyduğu tələb və tövsiyələrə vətəndaşların davranışı adekvatdırmı və daha nələrə əməl olunmalıdır?

■ **Bu barədə hafta.az-a danışan virusoloq Tərlan Məmmədov dedi ki, cəmiyyət təhlükəni hiss etməli, müvəqqəti narahatlığa dözümlü olmalıdırlar:**

“Koronavirus iki əsas xüsusiyyəti ilə fərqlənir: Ən təhlükəli cəhəti ondan ibarətdir ki, 80 faiz insanlarda bu simpitomlar görünmür. Yəni insanda simpitom görünmədiyi üçün sürətlə yayıla bilir. Bu virusun əsas cəhəti ondan ibarətdir ki, ölüm halları çox olur. Heç kim bilmir ki, ətrafında bu virus var, ya yox? Gənclər özləri də normal həyata davam edərkən, hələ özü də virusa yoluxması haqqında məlumatı olmur. Sonra anidən əlamətlər biruzə verməyə başlayır.

İkinci bir xüsusiyyəti ondan ibarətdir ki, insan vücudunda tənəffüs yollarına ciddi təsir göstərir. Azərbaycan hökuməti karantin rejimi başlatdı. Vətəndaşların sağlamlığı üçün demək olar ki, zəruri tədbirlər görülür. Bunun üçün insanlar da gərək tədirgin olsunlar. Anlasınlar ki, bu təhlükəli virusdur. Özləri yoluxdusa, öz yaxınlarını da yoluxdura bilərlər. Karantin qaydalarına əməl etməlidirlər. Çağırışlar öz əsasını tapmalıdır”.

***✍ Ruzbeh***

# Ölkə ərazisində taxıl zəmilərinin 4,9 faizində biçin başa çatıb



***Azərbaycanda taxıl biçini davam edir. Bugünədək ölkə üzrə zəmilərin 14,9 faizində biçin başa çatıb, 150794,4 hektar sahədən 453395,7 ton məhsul yığılıb. Bunu hafta.az-a açıqlamasında Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsinin müdiri Vüqar Hüseynov bildirib.***

Onun sözlərinə görə, biçilən sahələrin 147519 hektarı arpa, 3275,4 hektarı buğda sahələridir: "İyunun 11-nə olan operativ məlumata görə, orta məhsuldarlıq 30,1 sent/ha, arpa üzrə 30 sent/ha, buğda üzrə 34 sent/ha təşkil edir. Biçin prosesinə 1413 kombayn cəlb olunub. Bunlardan 517-si "Aqrolizinq" ASC-nin rayon bölmələrinin balansında olan kombaynlardır. "Aqrolizinq" tərəfindən məhsulun tez və itkisiz yığılması üçün biçinə başlanılmayan dağlıq və dağətəyi rayonlardakı bölmələrdən hazırda aktiv biçin prosesinin getdiyi Aran rayonlarına əlavə olaraq 185 kombayn dislokasiya olunub. Biçin prosesində hüquqi və fiziki şəxslərin mülkiyyətində olan 711 kombayn da iştirak edir.

"Aqrolizinq"in kombaynları tərəfindən 58382 ha, hüquqi və fiziki şəxslərin kombaynları tərəfindən 92412,4 ha sahə biçilib. Bugünədək arpa üzrə ən yüksək məhsuldarlıq Tovuz rayonunda qeydə alınıb - 44 sent/ha. Bərdə (39,7 sent/ha) Sabirabad (38,1 sent/ha), Saatlı (37,7 sent/ha), İmişli (37,6 sent/ha), Samux (37,6 sent/ha), Salyan (37,5 sent/ha), Ağdam (36,6 sent/ha), Qax (35,7 sent/ha), Tərtər (34,4 sent/ha) və Ağsu (33 sent/ha) rayonlarında məhsuldarlıq göstəricisi yüksəkdir".

Qeyd edək ki, bu il Azərbaycanda 1010218 hektar sahədə payızlıq taxıl əkilib. Bunlardan 640977,6 hektarı buğda, 369240,4 hektarı arpa sahələridir. Hazırda biçin prosesi davam edir.

✍ *Sevinc*

# Suraxanıda sakinlərin sosial problemlərinin həlli nəzarətdə saxlanılır



**Suraxanı rayonu, Bülbülə qəsəbəsi, Samir Əliyev küçəsinin sakinlərinin yaşadıqları ərazidə su verilişində fasilələrin yaranmasına dair müraciətləri ilə bağlı Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov sakinlərlə görüşərək, onları dinləyib, problemləri ilə maraqlanıb.**

Yay mövsümünün başlanması ilə əlaqədar içməli suya olan tələbatın artması səbəbindən sözügedən ərazidə suyun verilişində fasilələr yaranmasına baxmayaraq, məsələnin həlli istiqamətində təxirəsalınmaz tədbirlər görülür. Qeyd edək ki, dövlətimizin birbaşa qayğı və diqqəti nəticəsində paytaxt Bakıda və regionlarda reallaşdırılan mühüm layihələr ölkə əhalisinin keyfiyyətli içməli su ilə fasiləsiz təminatının və kanalizasiya xidmətlərinin yaxşılaşmasına səbəb olub. Suraxanı rayonunda da su təchizatı və kanalizasiya xidmətlərinin yaxşılaşdırılması, əhalinin içməli su ilə fasiləsiz təmin olunması məqsədilə yeni xətlərin çəkilişi davam etdirilir.

Son aylarda rayon ərazisində 15 800 m su xətti, 6 650 m kanalizasiya xətti o cümlədən, Bülbülə qəsəbəsi, Samir Əliyev küçəsində 4 000 m su xətti, 150 m kanalizasiya xətti, Nizami, Əzizbəyov, M.Bəydəmirov küçələrində 3 500 m, 3-cü Mədən küçəsində 1 100 m su xətti çəkilmişdir.

Hazırda Əmircan qəsəbəsi, Səttar Bəhlulzadə və Atamoğlan Rzayev küçələrini əhatə edəcək 800 mm diametrlik 2 900 metr uzunluğunda yeni kanalizasiya xəttinin çəkilişi layihəsi davam etdirilir.

✍ *Qələndər*

# 33 kq-dan çox narkotik vasitənin ölkəyə gətirilərək realizə olunmasının qarşısı alınıb



**Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən həyata keçirilən növbəti əməliyyat tədbiri nəticəsində külli miqdarda yüksək təsiredici xassəyə malik narkotik vasitələrin və psixotrop maddələrin ölkə ərazisinə gətirilərək realizə olunmasının qarşısı alınıb.**

Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən hafta.az-a verilən məlumata görə, Baş İdarə əməkdaşlarının daxil olmuş əməliyyat məlumatı əsasında həyata keçirdikləri tədbir nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Masallı rayon sakini, əvvəllər məhkum olunmuş Elməddin Əzizov Bakı şəhəri Xətai rayonu ərazisində saxlanılıb. Onun üzərində şəxsi axtarış aparılan zaman 11,930 qram narkotik vasitə aşkar olunaraq götürülüb.

Əməliyyat tədbirlərinin davamı olaraq Baş İdarənin əməkdaşları tərəfindən Elməddin Əzizovun Xətai rayonunda kirayədə qaldığı evə baxış zamanı əlavə 24 kiloqram 885 qram heroin, 1 kiloqram 870 qram tiryək, 3 kiloqram 275 qram psixotrop maddə olan metamfetamin və 1 ədəd elektron tərəzi aşkar olunub.

Araşdırma zamanı müəyyən olunub ki, Elməddin Əzizov hələlik adı istintaqa məlum olmayan İran vətəndaşının tapşırığı ilə qanunsuz yollarla Azərbaycan ərazisinə keçirilən külli miqdarda narkotik vasitə və psixotrop maddəni Masallı rayonu ərazisində qəbul edib və Çaxırlı kəndində yarımtikilidə gizlədib. Daha sonra Elməddin Əzizov narkotik vasitələri paytaxta gətirərək kirayə yaşadığı evdə saxlayıb. O, narkotik vasitələri İran vətəndaşının deyəcəyi adamlara satandan sonra pulun bir hissəsini geri göndərməli imiş.

Baş İdarə əməkdaşları tərəfindən həyata keçirilən daha bir əməliyyat zamanı isə narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan daha iki nəfər şəxs saxlanılıb. Abşeron rayonunda həyata keçirilən tədbir zamanı paytaxt sakini Zeynal Zeynalov və Göyçay rayon sakini Vüqar Cəbrayılov tutulublar. Onların üzərində şəxsi axtarış aparılan zaman Zeynal Zeynalovdan 3 kiloqram, Vüqar Cəbrayılovdan isə 309,150 qram narkotik vasitə heroin aşkar olunaraq götürülüb.

Bu şəxslər də ifadələrində narkotik vasitələri hələlik adı istintaqa məlum olmayan İran vətəndaşından satmaq niyyəti ilə aldıqlarını bildiriblər.

Beləliklə sonuncu əməliyyatlar nəticəsində Baş İdarənin əməkdaşları tərəfindən 33 kiloqramdan artıq narkotik vasitə və psixotrop maddənin qanunsuz dövriyyəyə buraxılmasının qarşısı alınıb.

Faktlarla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb, adları çəkilən şəxslər tutularaq istintaqa təqdim olunublar. Cinayət işi üzrə zəruri istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

✍ *Hafta.az*

# "Koroğlu" metrosunun ətrafındakı "yaşıl ada" səhraya çevrilir





***2015-ci il Avropa İdman Oyunları ərəfəsində paytaxtın "Koroğlu" metro stansiyasının ətrafında abadlıq işləri aparımış, park salınmışdır. Sözügedən metro stansiyanın dəmiryol dayanacağına yaxın çıxışının ətrafında salınmış park, demək olar ki, baxımısızlıqdan yararsız hala düşüb.***

Belə ki, yaşıllıqdan əsər-əlamət qalmayıb. Vaxtilə həmin ərazi "yaşıl ada"nı xatırladırdı. Salınmış yaşıl qazon, eləcə də əkilmiş zeytun ağacı və kol bitkiləri suvarılmadığına və qulluq göstərilmədiyinə görə, quruyaraq tələf olub. Eyni zamanda, döşənilmiş tamet daşlar dağılaraq neçə vaxtdır ki, ərazidə qalıb, gəlib təmir edən yoxdur. Yeri gəlmişkən onu da qeyd edək ki, ərazi başdan-ayağa natəmizlik içindədir.

✍ *Qələndər Xaçınçaylı*

# Bakıda narkotacirdən 4 kq-dan artıq narkotik vasitə aşkar olunub



**Nizami Rayon Polis İdarəsinin Narkotiklərlə Mübarizə Bölməsinin əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat tədbiri nəticəsində külli miqdarda narkotik vasitə və psixotrop maddə qanunsuz dövriyyədən çıxarılıb.** Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən hafta.az-a verilən məlumata görə, daxil olmuş əməliyyat məlumatı əsasında həyata keçirilən tədbir nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən paytaxt sakini, əvvəllər məhkum olunmuş Ramil Quliyev saxlanılıb. Onun üzərində şəxsi axtarış aparılan zaman 3 kiloqram 110 qram narkotik vasitə olan heroin, 1 kiloqram 105 qram marixuana və 180 ədəd satışı qadağan edilən psixotrop tərkibli "Preqabalin" həbi aşkar olunaraq götürülüb.

Araşdırma zamanı müəyyən olunub ki, Ramil Quliyev adı istintaqa məlum olmayan İran vətəndaşının tapşırığı ilə qanunsuz yollarla Azərbaycan ərazisinə keçirilən külli miqdarda narkotik vasitələri satmaq məqsədi ilə əldə edib. Faktla bağlı Nizami RPİ-nin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb, adları çəkilən şəxs tutularaq istintaqa təqdim olunub. Cinayət işi üzrə zəruri istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

# "Zara", "Bershka", "Pull & Bear" və "Massimo Dutti" mağazaları bağlanır



**"Zara", "Bershka", "Pull & Bear" və "Massimo Dutti" kimi məşhur geyim brendlərinin dünya üzrə mindən çox mağazası bağlanacaq. Bu barədə Rusiya mətbuatı sözügedən brendlərin sahibi olan və restrukturizasiya barədə elan edən "Inditex" şirkətinə istinadən xəbər verir.**

Məlumata əsasən, bu qərarın qəbul edilməsinin əsas səbəbi kimi yeni növ koronavirusun pandemiyası zamanı satışların azalması və zərərin yaranması göstərilir.

Sözügedən brendlərin Azərbaycanda təmsilçisi olan "Retail Group Azerbaijan" şirkətindən "APA-Economics"ə verilən məlumata görə, qəbul olunan bu qərar daxili bazara aid deyil və qeyd olunan mağazalar şəbəkəsi Azərbaycanda fəaliyyətini davam etdirir.

# Sentyabr-oktyabr aylarında vəziyyət daha gərgin ola bilər



**"Əgər yay ayları ərzində COVİD-19-un yayılmasının qarşısının alınması üçün tələb olunan qaydalara əməl edilməsə, sentyabr-oktyabr aylarında mövsümi xəstəliklərin də ortaya çıxması ilə əlaqədar vəziyyət daha gərgin ola bilər".**

Bunu Trend-ə infeksionist həkim Azər Allahverdiyev deyib. Onun sözlərinə görə, Azərbaycanda koronavirusla mübarizə işi 1-2 ay əvvəllə müqayisədə çətinləşir, çünki ölkədə virusa yoluxan xəstələrin sayı getdikcə artır. Koronavirusun olmaması barədə yayılan şayiələri əsassız hesab edən infeksionist qeyd edib ki, bəzi insanlar həftənin sonunda sərt karantin qaydalarının tətbiq edilməsini qeyri-ciddi qarşılayır: "İnsanlar bunu zarafata salmalı deyillər, ciddi yanaşmalıdırlar. Başa düşməlidirlər ki, hər bir kəs COVİD-19 daşıyıcısı ola bilər. Türkiyədə küçədə gəzən biri qarşıdan kiminsə gəldiyini gördükdə yolunu dəyişir, çünki onlar artıq hər kəsə COVİD-19 daşıyıcısı kimi baxırlar. Əgər Azərbaycanda da belə edilməsə, vəziyyət yaxşılığa doğru dəyişməyəcək. Virusun yayılmasının qarşısını almaq üçün bu gün həkimlərimizin var-gücü ilə çalışması ilə yanaşı, insanlar da öz düşüncələrini dəyişməli və məsələni ciddi qəbul etməlidirlər".

# Bakıda uşaq həkimi koronavirusdan öldü

**Azərbaycanda daha bir həkim koronavirusun qurbanı olub. N.Nərimanov adına 1 saylı Uşaq Yoluxucu Xəstəliklər Xəstəxanasının pediatrı Sədaqət Həsənova vəfat edib.**

Məlumata görə, həkim Ramazan bayramından sonra işə gəlməyib. O, 1 Saylı Klinik Tibbi Mərkəzə yerləşdirilmişdi.

Həmkarlarının bütün müdaxilələrinə baxmayaraq, bir gün süni nəfəs aparatında qalan 65 yaşlı tibb işçisinin həyatını xilas etmək mümkün olmayıb. Xatırladaq ki, o, virusun qurbanı olan ilk tibb işçisi deyil. Ötən gün travmatoloq Mehman Hüseynov da adıçəkilən xəstəlikdən vəfat edib.

✍ *Hafta.az*

# "Azərişıq" sayğacların oxunmasında yeni layihə tətbiq edəcək

**"Azərişıq" sayğacların oxunmasında yeni layihə tətbiq edəcək.**

Bu sözləri iyunun 12-də "Azərişıq" ASC-nin Enerji satışı departamentinin direktor müavini Vüqar Nəbibəyli deyib. O bildirib ki, yeni layihə sayğacların RS485 port vasitəsilə oxunmasını əhatə edir ki, indeks göstəricilərinin sistemə daxil edilməsində insan faktorunu aradan qaldırmaqla xətanı sıfıra endirəcək.

# Paytaxtdakı çimərliklər yay mövsümünə hazırdır



◂ əvvəli 1-ci səhifədə

Vətəndaşların istirahərinin təşkili üçün çimərlik ərazilərinə kifayət qədər oturacaq və qamaklar qoyulub, ərazı boyunca zibil konteynerləri, qoruyucu maskaların atılması üçün qutular quraşdırılıb, əlavə işlər görülüb.

Qeyd olunmalıdır ki, İDEA İctimai Birliyi tərəfindən yaradılan bu ictimai çimərliklərə giriş və digər xidmətlərdən istifadə pulsuzdur. Ərazinin təmizliyini lazımi səviyyədə saxlanılması üçün burada xidmət personalı fəaliyyət göstərir. Çimərliklərdə Fövqəladə Hallar Nazirliyinin xilasetmə məntəqələri, həmçinin tibb məntəqələri yaradılmış, sərinləşdirici içkilər və müxtəlif ərzaq məhsulları təklif edən köşklər quraşdırılmışdır.

Karantin şəraiti nəzərə alınaraq hər bir çimərlikdə maarifləndirici lövhələr quraşdırılıb, işçi personal tərəfindən sosial məsafə saxlanılması, dezinfeksiyaedici vasitələrdən istifadə edilməsi, təmizliyə riayət edilməsi ilə bağlı vətəndaşlara xəbərdarlıq edilir.

Eyni zamanda paytaxtın sahilyanı qəsəbələrində fəaliyyət göstərən özəl və digər çimərlik və istirahət mərkəzlərində də karantin şəraitinin tələbləri nəzərə alınmaqla mövsümə hazırlıqla bağlı müvafiq hazırlıq işlər görülüb. Aidiyyəti qurumlar tərəfindən bütün çimərliklərdə dəniz suyunun təmizliyinin yoxlanılması üçün bir neçə dəfə laborator nümunələr götürülüb, həmçinin digər məsələlərlə bağlı monitorinqlər keçirilirb.

✍ *Hafta.az*

# Pandemiya cinsi yolla keçən infeksiyalara yoluxmanı azaldacaq

***Müsahibimiz ATU-nun Dermotovenerologiya kafedrasının müdiri, professor Fərid Mahmudovdur.***

***- Əvvəlcə dermotoloji və veneroloji xəstəliklərin epidemiologiyası və etiologiyası haqqında qısa məlumat verməyinizi istərdik.***

- Dermotovenerologiya bütün dünyada tibbin maraqli sahələrindən biridir və dermatoveneroloji xəstəliklər artan istiqamətdə gedir. Dermotovenerologiya özündə həm dəri xəstəliklərini, həm də cinsi yolla keçən xəstəlikləri birləşdirir. Dəri xəstəlikləri etiologiyasina görə infeksion və qeyri-infeksion olmaqla ayırd olunur. Qeyri-infeksion xəstəliklər isə bir çox hallarda polietioloji olur. Bəziləri autoimmun mənşəlidir. Məsələn, pemfiqus, bulloz, epidermoliz və s. Bunların səbəbləri elmə hələ dəqiq məlum deyil, lakin bu, dermatovenerologiyanın geridə qalmasını göstərmir, sadəcə elm hər şeyi müəyyən edəcək səviyyəyə gəlib çatmayib. Cinsi yolla keçən xəstəliklər əvvəllər zöh-



rəvi xəstəliklər adlandırılırdı və bizə 4 belə xəstəlik məlum idisə, indi artıq 50-dən çoxdur, bu da diaqnostik metodların, cihazların inkişafı ilə əlaqədardır. <https://www.facebook.com/arif.memmedov.315>- Azərbaycanda bu sahəyə aid ən geniş yayılmış xəstəliklər hansılardır və diaqnostikası, müalicə və profilaktikası necə həyata keçirilir?

- Ötən əsrin 90-ci illərinə qədər Azərbaycanda cinsi yolla keçən xəstəliklər çox deyildi, əsasən, qonokokk infeksiyası və trixomoniaz idi. SSRİ dağıldıqdan sonra sərhədlər açıldı, daha çox ölkəyə gediş-gəliş yarandı, insanların biri-birilə təmasları artdı, nəticədə cinsi yolla keçən infeksiyalara yoluxanlar çoxaldı. Son 25 ildə artmış bəd xəstəliklərdən biri də sifilisdir. Lakin son 2 ildə də stabilləşmə müşahidə olunur. Sovet dönəmində zöhrəvi xəstələr müalicəyə məcburi cəlb olunurdular. Lakin indi müalicə şəraitini xəstələr özləri seçir, bəzi hallarda anonim şəkildə də müalicə alırlar ki, bu da statistikaya təsir göstərir. Hal-hazırda bu tip xəstəliklər üzrə müayinə və müalicələrin daha ciddi olması, aparılması üzrə işlər gedir.

***- Pandemiya dövründə karantin rejiminin tətbiqi, izolyasiya tədbirlərinin görülməsi həm də yoluxucu dəri xəstəliklərinə öz təsirini göstərirmi?***

- Pandemiya dövründə tətbiq olunan karantin zamanı insanlar arasında sıx təmaslar azalaraq minimuma enəcək, təbii ki bu da cinsi yolla keçən infeksiyalara yoluxmanı azaldacaq. Həmçinin, fotodermatoz, kontakt dermatit kimi xəstəliklərin də sayında azalma müşahidə olunmalıdır.

***- Dəri-zöhrəvi xəstəliklərin qarşısının alınması üçün hansı qabaqlayıcı tədbirlər vacibdir və kafedranızda müasir müalicə metodlarına dair elmi və praktiki işin vəziyyətini necə qiymətləndirərdiniz?***

- Azərbaycan Tibb Universitetinin Dermotovenerologiya kafedrasının bazası Respublika Dəri-Zöhrəvi Mərkəzində yerləşir. Burada xəstələrin çoxluğu, laborator şərait həm tələbələrin, həm həkim-rezidentlərin elmi öyrənməsində, həm də elmi işlərin yazılmasında xüsusi əhəmiyyətə malikdir. Mərkəzdə yerləşən seroloji laboratoriyada sifilis və s. kimi xəstəliklərə diaqnoz qoymaq üçün lazımı avadanlıqlar, cihazlar vardır.

Eyni zamanda ATU-nun digər klinik laboratoriyaları da vardır ki, onlar da muasir diaqnostik əhəmiyyətə malik cihazlarla təmin olunmusdur.

Kafedramızda bu ildən sifilis haqqında elmi-praktik işlərin yazılmasında yeni istiqamət götürülmüşdür ki, bu barədə də 2 tibb üzrə fəlsəfə doktoru, 1 tibb elmləri üzrə doktorluq işləri gedir.

# "Formula-1" üzrə Azərbaycan Qran-prisi rəsmən ləğv olunub

**Formula-1 üzrə dünya çempionatının Azərbaycan Qran-prisi ləğv olunub. Bu barədə yarış təşkilatçıları bəyanat yayıb. Bildirilib ki, 2020-ci ildə Sinqapur və Yaponiya ilə yanaşı, Azərbaycan Qran-prisi ləğv olunub.**

Bakı Şəhər Halqası Əməliyyat Şirkətindən isə açıqlamasında qeyd edib ki, COVİD-19 pandemiyası səbəbindən "Formula-1" Azərbaycan Qran-prisi 2020 ləğvindən böyük təəssüf hissi keçirir: "Yarışımızın 2020-ci ildə baş tutması üçün hər fürsəti araşdırdıq, lakin bütün səylərimizə baxmayaraq bunun mümkün olmayacağını anladıq. Azərbaycan xalqının, dəyərli Formula-1 azarkeşlərinin, həmçinin Formula-1 əməkdaşlarının sağlamlığı və təhlükəsizliyi naminə bu qərarı verməli olduq. 2021-ci ildə mövsümün ən yaxşı yarışını keçirmək üçün böyük əzmlə çalışmağa davam edəcəyik".

Qeyd edək ki, Azərbaycan Qran-prisi iyunun 5-7-də keçirilməli olsa da, koronavirus pandemiyası səbəbindən təxirə salınmışdı. Dünya çempionatının hələlik ilk 8 mərhələsinin - Avstriya (3-5 iyul, 10-12 iyul), Macarıstan (17-19 iyul), Böyük Britaniya (31 iyul-2 avqust, 7-9 avqust), İspaniya (14-



16 avqust), Belçika (28-30 avqust) və İtaliya Qran-prisinin (4-6 sentyabr) tarixi isə təsdiqlənib. "Formula-1" üzrə dünya çempionatının Azərbaycan Qran-prisinə bilet alanların məsələsinə aydınlıq gəlib. Bakı Şəhər Halqası Əməliyyat Şirkətindən (BŞH) verilən məlumata görə, əvvəlcə təxirə salınan, ardınca ləğv olunan yarış üçün alınan biletlərlə bağlı iki variant təklif edilib.

Biletləri qaytarmaq istəyənlər əməliyyat şirkətinə bilet@bakugp.az elektron ünvanı vasitəsilə müraciət edə bilərlər. Əks halda, həmin biletlər gələn il baş tutacaq yarış üçün qüvvədə qalacaq.

BŞH həmçinin bildirib ki, builki yarış həftəsonunun ləğvi yerli promouter üçün hər hansı bir maliyyə öhdəliyi yaratmır və eyni zamanda mərhələnin keçirilməsi ilə bağlı ödənilmiş lisenziya haqqı olduğu kimi gələnilki yarış mövsümünə ötürülür.

# ABŞ-da Xristofor Kolumbun heykəli götürülüb



**ABŞ-ın Nyu-Cersi ştatının Kamden şəhərində Xristofor Kolumbun şərəfinə ucaldılmış heykəl götürülüb. Bu addım yerli sakinlərin hökumətə dəfələrlə müraciətindən sonra atılıb.**

Əksəriyyətini müxtəlif irqlərə məxsus insanların təşkil etidiy şəhər sakinləri heykəlin götürülməyəcəyi təqdirdə şənbə günü etiraz aksiyası keçirəcəkləri ilə yerli hökuməti hədələyiblər. Bundan sonra şəhər icra hakimiyyəti sakinlərin tələbini nəzərə alaraq heykəli demontaj edib.

Bundan əvvəl Amerikanı kəşf edən dəniz səyyahı Xristofor Kolumbun Virciniya ştatının Riçmond, Minnesota ştatının Sent-Pol şəhərlərində ucaldıılmış heykəlləri götürülüb, Boston və Mayamidəki heykəlləri isə vandalizmə məruz qalıb. Qeyd edək ki, afro-amerikalı Corc Floydun ölümündən sonra ABŞ-da irqçiliyə qarşı etiraz aksiyaları başlayıb. Etirazların nəticəsi olaraq irqçi hesab edilən bir çox şəxsiyyətlərin heykəlləri götürülüb.

# Qızardılmış yeməklər həftədə bir dəfədən çox yeyilməməlidir

**Hər kəs sağlam orqanizm arzusunda olsa da, adətən qidaların faydasına deyil, dadına daha çox əhəmiyyət verir. Gündəlik və həftəlik rasionda qızardılmış yeməklər mütləq yer tutur. Lakin bunu mütəxəssislər qətiyyən tövsiyə etmirlər.**

Həkim-diyetoloq Ləman Süleymanova AZƏRTAC-a deyib: "Qızardılmış qidaların tərkibində müəyyən maddələr var ki, onlar aktivləşir və əgər ət və tərəvəz məhsulları təbiidirsə, həftədə bir dəfə ondan istifadə etmək olar, lakin hər gün qızardılmış qidalardan istifadə etmək mədə-bağırsaq xəstəliklərinə səbəb ola bilər". Qızardılmış xörəklərin bişirilmə qaydasına da fikir vermək lazımdır. Həmin xörəklərin az miqdarda bitki yağı ilə bişirilməsi məsləhətdir. Çox yağ, çox duz və çox istiotdan istifadə edilməsi qidanın təbii dadını qaçırır. Eyni yağdan bir neçə dəfə istifadə edilməsi də sağlamlıq üçün birbaşa təhlükə yaradır. Hə-



kim-diyetoloqun dediyinə görə, eyni yağdan istifadə konsoregen və mutagen təsirli qida zəhərlənməsi ilə nəticələnə bilər.

Düzgün qaydada bitki yağlarında qızardılan qidalardan istifadə etmək olar, lakin istənilən halda həmin yeməklər həftədə bir dəfədən çox yeyilməməlidr.

# UEFA avrokubokların məkanını müəyyənləşdirib

**UEFA Çempionlar Liqası (ÇL) və Avropa Liqasının (AL) qalan mərhələlərinin formatını müəyyənləşdirib. Qitə futbol qurumu oyunların keçirilməsini qərara alıb.**

UEFA İcraiyyə Komitəsi həm ÇL, həm də AL-i 1/4 final mərhələsindən etibarən "8-lər finalı" formatında təşkil etməyi və qarşılaşmaların 1 oyundan ibarət olmasını qərarlaşdırıb. Qurum Avropanın ən nüfuzlu klub turnirinin qalan matçlarının Portuqaliyada, ikinci dərəcəli yarışın isə Almaniyada keçirilməsini istəyir. UEFA Superkubokunun isə Macarıstanda (Budapeşt) təşkili planlaşdırılır.

Qeyd edək ki, Çempionlar Liqasının final oyunu İstanbula, Avropa Liqasının həlledici qarşılaşması isə Qdanska həvalə edilib. UEFA yekun qərarını iyunun 17-də baş tutacaq videokonfransdan sonra açıqlayacaq.

# Tarixin ən çox sevilən kino qəhrəmanları bəlli oldu

**Kino tarixinin ən çox sevilən qəhrəmanlarının reytinqi açıqlanıb. "Report" "Empire"a istinadən xəbər verir ki, jurnalın oxucuları arasında keçirilən sorğuya əsasən, tərtib edilən reytinqdə birinci yeri silsilə filmlərdə Harrison Fordun oynadığı arxeoloq İndiana Cons (İndiana Jones) tutub.**

İkinci yerdə Siqurni Uiver tərəfindən "Yad" filmlər silsiləsində canlandırılan baş qəhrəman olan dəniz qüvvələrində mülki müşavir Ellen Luis Ripley gedir. Üçüncü yeri də "Marvel" superqəhrəman filmlər silsiləsindəki Dəmir Adam (İron Man) tutur. Sonrakı yerlərdə "Kapitan Amerika" silsiləsindən eyni adlı qəhrəmanı, "Ulduzlar Müharibəsi" silsiləsindən Mark Hamill tərəfindən canlandırılan Luk Skayuolker (səmada gəzən) və Karri Fişerin canlandırdığı şahzadə Leya, bir sıra komiks filmlərin qəhrəmanları Batmanı (yarasa adam), Henri Kavill tərəfindən canlandırılan Supermanı, Çadvik Bosmanın oynadığı Qara Qaplanı görürük.

# Ölümündən sonra "Emmi" mükafatına layiq görüldü

**Yanvarın 26-da şəxsi helikopterinin qəzaya uğraması nəticəsində dünyasını dəyişən dünyaca məşhur basketbolçu Kobi Brayant "Emmi" mükafatının laureatı olub.**

Bu barədə Amerika Televiziya Akademiyasının rəsmi saytında məlumat verilib. Mükafat mərhum idmançının incəsənət, televiziya və elm sahəsində qazandığı nailiyyətlərə görə veriləcək.

"Emmi" mükafatlarının təqdimetmə mərasimi isə iyulun 18-də baş tutacaq. Qeyd edək ki, Kobi Brayant ABŞ-ın Milli Basketbol Assosiasiyasının "Los-Anceles Leykers" klubunun müdafiəçisi olub.

# "Real Madrid" PSJ-nin 110 milyonluq təklifini rədd edib




**İspaniyanın "Real Madrid" futbol klubu hücumçusu Vinisius Junior üçün "Paris Sen-Jermen" komandasının təklifini rədd edib.** Paris təmsilçisi 19 yaşlı yarımmüdafiəçi üçün 110 milyon avro ödəməyə hazır olduğu vurğulayıb. Ancaq Madrid klubundan heç bir məbləğ müqabilində braziliyalı oyunçunun satılmasının planlaşdırılmadığı bildirilib.

V.Junior cari mövsümdə "Real Madrid"in heyətində keçirdiyi 28 matçda dörd qol vurub və bir məhsuldar ötürmə edib.

## HƏFTƏ REYTİNQ

### Həftənin "koronavirusşünası"



"Koronavirus yeni deyil, 40-a yaxın növü var. İlk dəfə 1965-ci ildə respirator xəstəlik keçirmiş insanda aşkarlanıb. Axtarsaq, görərik ki, bu xəstəlik insanların çoxunda var. Bəlkə də əksəriyyətində... Testlər insanların 80 faizində anti-telləri aşkar edir. Moskvada araşdırma aparılıb, bir müəssisənin əməkdaşları yoxlamadan keçiblər, onların 34 faizinin özləri də bilmədən bu xəstəliyə yoluxduqları məlum olub. Onlarda koronavirusun anti-tellərini tapıblar. Deməyim odur ki, xəstəlik yüngül və ağır formada keçə bilər. Bu xəstəlik bəzən hiss edilmir. Bunu qriplə eyniləşdirmək düzgün deyil. Qrip gün ərzində 10 nəfəri, koronavirus isə çox təhlükəli virusdur, 30-40 nəfəri yoluxdurur". Bunu Azərbaycanın sabiq Səhiyyə naziri Əli İnsanov dedi.

### Həftənin "xeyriyyəçi deputatı"



Deputat Fazil Mustafa Milli Məclisin cümə günü keçirilən iclasında növbəti dəfə Naxçıvan getməli olan, eyni zamanda Naxçıvandan Bakıya gəlməli olan vətəndaşların problemini qaldırdı və iclasda iştirak edən maliyyə naziri Samir Şərifova təcili əlavə təyyarələr üçün pul ayrılması barədə müraciət etdi: "Bilet pulu olmayan vətəndaşlar dövlət hesabına biletlə təmin olunmalıdır. Əgər vəsait yoxdursa, şəxsən mən öz maaşımdan 20 nəfərə bilet almağı öz öhdəmə götürürəm. Hesabı göstərin, ora keçirim. Bunlar xarici ölkə vətəndaşı deyillər, 3 aydır evlərindən didərgin düşüblər, ana gedib Naxçıvanda əsgərlikdəki oğluna baş çəkməyə, yol bağlanıb, qalıb orada. Üç aydır xeyirxah insanların gətirdiyi azuqə ilə ayaqda qalır. Naxçıvanlıları bu ağır şəraitdən çıxması üçün bütün zəruri addımlar atılmalıdır", - deyə deputat bildirib.

### Həftənin "koronaviruslu 1-ci xanımı"



Ukrayna prezidenti Vladimir Zelenskinin həyat yoldaşı Yelena Zelenskayaya koronavirus diaqnozu qoyuldu. Bu barədə ölkənin Prezident Administrasiyası məlumat yayıb. Bildirilib ki, Ukraynanın birinci xanımı hazırda ambulator müalicədədir. Məlumata görə, V.Zelenski və uşaqlarında isə koronavirus testi neqativ çıxıb.

### Həftənin "mərhum xalq artisti"



Cümə axşamı vəfat edən Xalq artisti, Prezident təqaüdçüsü Teymur Mustafayev dəfn olundu. T.Mustafayev doğulduğu Cəlilabad rayonunun Alar kənd qəbiristanlığında - həyat yoldaşı və oğlunun məzarı yanında torpağa tapşırılıb. Dəfn mərasimində məhdud sayda insan (Xalq artistinin yaxın ailə üzvləri) iştirak edib. Qeyd edək ki, Teymur Ağaxan oğlu Mustafayev iyunun 11-də 82 yaşında vəfat edib. Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi də T.Mustafayevin koronavirusdan öldüyünü açıqlayıb. Xatırladaq ki, Xalq artistinin həyat yoldaşı Təbərrik Mustafayeva ötən il dünyasını dəyişib, oğlu Bakıxan Mustafayev isə 2007-ci ildə idarə etdiyi avtomobildə baş verən yanğın zamanı ölüb.

### Həftənin "koronavirus şübhəlisi"



Azərbaycanlı aktyor, əməkdar artist Bəhram Bağırzadənin koronavirusa yoluxması və xəstəxanaya yerləşdirməsi haqda informasiyalar yayıldı. Xəbərlərin birində deyilirdi ki, guya sənətkardan götürülmüş koronavirus testinin nəticəsi pozitiv çıxıb, lakin vəziyyəti stabildir. Lakin az sonra bu xəbər B. Bağırzadənin dostu və özü tərəfindən təkzib edildi.

### Həftənin "otel sakini"



"Mart ayından Qubadayam, karantin bitənədək burada qalacağam. Ağac əkirəm, gülə, çiçəyə qulluq edirəm". Bunu Xalq artisti Leyla Şıxlinskaya karantin günlərindən danışarkən dedi. Aktrisa bildirib ki, hazırda Qubadakı otelində iki nəfərlə birlikdə özünütəcrid şəraitində yaşayır. "Qubada balaca otelim var. Mart ayından orada aşpaz və gözətçimlə qalıram. Övladlarımdan biri ailəsi ilə Moskvada, digər qızım isə Sinqapurdadır. Karantinin sonunadək oteldə qalacağam. Burada ağac əkirəm, gülə, çiçəyə qulluq edirəm. Otelin nə zaman açılacağı ilə bağlı insanlar tez-tez zəng edirlər... Mən də xalqımızın gəlib istirahət etməyini gözləyirəm, amma qanun qanundur, nə etmək olar. Karantini sakit keçirirəm, əsəbləşmirəm, gül-çiçəklə məşğul oluram. Ən əsası gülümsəməyə çalışıram. Əsəb- stresdən uzaq durmaq lazımdır, bütün xəstəliklərin başında o durur. Hər səhər yuxudan duranda Allaha şükür edirəm ki, bu gün də sağam, əlim tutur, ayağım gəzir".

### Həftənin "Şöhrət"lisi"



Azərbaycan Respublikasının iqtisadi inkişafında xüsusi xidmətlərinə görə Azərbaycan Respublikası Baş nazirinin müavini, Tarif Şurasının sədri Şahin Abdulla oğlu Mustafayev "Şöhrət" ordeni ilə təltif edildi. Prezident İlham Əliyev bu barədə sərəncam imzalayıb. Şahin Mustafayev 1965-ci ildə Ermənistanın Barana (Noyemberyan) rayonunun Cucevan kəndində anadan olub. Əslən Qazax rayonunun Qaymaqlı kəndindəndir. Azərbaycan Respublikasının İqtisadiyyat naziri (2008-2019), 2008-2013-cü illərdə Azərbaycan Respublikasının İqtisadi İnkişaf naziri, 2013-2016-cı illərdə isə Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye naziri vəzifələrində çalışmışdır. Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 2016-cı il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının İqtisadiyyat naziri təyin edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 23 oktyabr 2019-cu il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Baş Nazirinin müavini təyin edilmişdir.

✍ *Sultan Laçın*